AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

18 APREL 2019-cu il CÜMƏ AXŞAMI № 83 (6410) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

## Azərbaycan teatrlarının inkişafı ilə bağlı tədbirlərin davam etdirilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan teatr ənənələrinin qorunub saxlanılması və dövrün tələblərinə uyğun inkişafı ilə bağlı tədbirlərin davam etdirilməsi üçün Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinə 1,2 milyon (bir milyon iki yüz min) manat, o cümlədən Azərbaycan Dövlət "Yuğ" Teatrı, Azərbaycan Dövlət Pantomima Teatrı, Cəfər Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrı, Şəki Dövlət Dram Teatrı, Ağdam Dövlət Dram Teatrı, Füzuli Dövlət Dram Teatrı, Qazax Dövlət Dram Teatrı, Qusar Dövlət Ləzgi Dram Teatrı, Qax rayonu Gürcü Dövlət Dram Teatrı, Gəncə Dövlət Kukla Teatrı, Qax Dövlət Kukla Teatrı və Salyan Dövlət Kukla Teatrının hər birinə 100,0 (bir yüz) min manat ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 17 aprel 2019-cu il.**

## Qusar rayonunun Cibir-Həzrə-Mucuq-Sudur avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Səkkiz min nəfər əhalinin yaşadığı 14 yaşayış məntəqəsini birləşdirən Cibir-Həzrə-Mucuq-Sudur avtomobil yolunun tikintisi məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ilkin olaraq 3,0 (üç) milyon manat ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3.** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi Azərbaycan Respublikasının dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə bu Sərəncamın 1-ci hissəsində göstərilən avtomobil yolunun tikintisinin başa çatdırılması üçün zəruri olan maliyyə vəsaitini nəzərdə tutsun.

**4.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 17 aprel 2019-cu il.**

## Şirvan şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Şirvan şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması işlərinin davam etdirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 yanvar tarixli 890 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində digər layihələr üzrə dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.7.7-ci yarımbəndində göstərilmiş məbləğin 4,0 (dörd) milyon manatı "Azərsu" Açıq Səhmdar Cəmiyyətinə ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 17 aprel 2019-cu il.**

## V.İ.İsayevin 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirakına görə Vidadi İsa oğlu İsayev 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 17 aprel 2019-cu il.**

## Sumqayıt Şəhər Məhkəməsinin hakimi İ.M.Mahmudovun səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini, habelə "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 113-cü və 114-cü maddələrini rəhbər tutaraq **qərara alıram:**

Qanunvericiliyin tələblərini dəfələrlə kobudcasına pozduğuna görə Sumqayıt Şəhər Məhkəməsinin hakimi İlyas Musa oğlu Mahmudovun səlahiyyətlərinə vaxtından əvvəl xitam verilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 17 aprel 2019-cu il.**

## "Telekommunikasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1539-VQD nömrəli Qanununun tətbiqi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Telekommunikasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1539-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*1.1.* Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Telekommunikasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*1.2.* Azərbaycan Respublikası ərazisində efir məkanının təhlükəsizliyi və kənar yayımlara qarşı mübarizənin gücləndirilməsi ilə bağlı tədbirlər planının layihəsini beş ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*1.3.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının "Telekommunikasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.4.* mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.5.* həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Telekommunikasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 17 aprel 2019-cu il.**

## "Telekommunikasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alır:**

"Telekommunikasiya haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, N 8, maddə 685; 2006, N 11, maddə 932; 2007, N 5, maddə 442, N 11, maddə 1053; 2016, N 6, maddə 969, N 12, maddə 1989; 2017, N 3, maddə 346; N 6, maddələr 1024, 1046, N 7, maddə 1266, N 12, I kitab, maddə 2255; 2018, N 6, maddə 1161) aşağıdakı məzmunda 33.1.9-3-cü maddə əlavə edilsin:

"33.1.9-3. operator və ya provayderin telekommunikasiya şəbəkəsinə qoşulmaqla təşkil edilən qanunsuz beynəlxalq telekommunikasiya xidmətlərinin qarşısının alınması üçün texniki vasitələrdən, avadanlıqlardan və ya proqram təminatından istifadə etməklə tədbirlər görmək;".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 29 mart 2019-cu il.**

## "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 706 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 706 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, N 9, maddə 858; 2013, N 2, maddə 109, N 3, maddə 254, N 4, maddə 377; 2014, N2, maddə 117, N5, maddə 486, N9, maddələr 1027, 1044, 1048; 2015, N 6, maddə 708, N 8, maddə 917, N 10, maddə 1122; 2016, N 2 (II kitab), maddə 251, N 5, maddə 852, N 8, maddə 1384, N 9, maddə 1464; 2017, N 2, maddə 174, N 4, maddə 564, N 5, maddə 809, N 8, maddələr 1521, 1531; 2018, N 3, maddə 437, N 6, maddə 1242, N 10, maddə 2013, N 11, maddə 2553) 4-cü hissəsində "715" rəqəmləri "895" rəqəmləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 17 aprel 2019-cu il.**

## "Pasportlar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu bəndini rəhbər tutaraq, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası 2018-ci il 13 fevral tarixli 986-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

"Pasportlar haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1994, N 18, maddə 243; 1995, N 14, maddə 237; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, N 5, maddə 385, N 6, maddə 493; 1998, N 2, maddə 70; 2000, N 12, maddə 835; 2001, N 3, maddə 143, N 6, maddə 378, N 11, maddə 674; 2002, N 1, maddə 4, N 8, maddə 463; 2004, N 7, maddə 505; 2005, N 3, maddə 152, N 10, maddə 874; 2006, N 1, maddə 3, N 2, maddə 64, N 3, maddə 219, N 4, maddə 319, N 11, maddə 933, N 12, maddələr 1006, 1017, 1029; 2007, N 7, maddə 712, N 8, maddə 753, N 11, maddə 1053; 2008, N 3, maddə 158, N 8, maddələr 699, 701, N 10, maddə 886; 2009, N 7, maddə 519; 2010, N 3, maddə 166, N 4, maddə 276, N 11, maddə 935; 2011, N 4, maddə 270, N 6, maddə 474, N 7, maddə 580; 2012, N 7, maddə 647; 2013, N 5, maddə 465, N 6, maddə 619, N 7, maddə 793; 2014, N 4, maddə 323, N 11, maddə 1335; 2015, N 6, maddə 688; 2017, N 6, maddələr 1042, 1045, N 12 (I kitab), maddə 2263; 2018, N 11, maddə 2216; Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1444-VQD nömrəli Qanunu) 6-cı maddəsinin birinci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

**1.** 1-ci bəndə "hakimlərinə," sözündən sonra "İnsan Hüquqları üzrə Avropa Məhkəməsinə Azərbaycan Respublikasından seçilmiş hakimə," sözləri əlavə edilsin.

**2.** 3-cü bəndə "Konstitusiya Məhkəməsi sədrinin," sözlərindən sonra "İnsan Hüquqları üzrə Avropa Məhkəməsinə Azərbaycan Respublikasından seçilmiş hakimin," sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 5 mart 2019-cu il.**

## "Pasportlar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 5 mart tarixli 1529-VQD nömrəli Qanununun tətbiqi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Pasportlar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 5 mart tarixli 1529-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*1.1.* Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Pasportlar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*1.2.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.3.* mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.4.* həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Pasportlar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 17 aprel 2019-cu il.**

## Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə Çin Xalq Respublikasının Mədəniyyət və Turizm Nazirliyi arasında 2019-2023-cü illər üçün mədəni əməkdaşlıq haqqında Protokolun təsdiq edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə Çin Xalq Respublikasının Mədəniyyət və Turizm Nazirliyi arasında 2019-2023-cü illər üçün mədəni əməkdaşlıq haqqında 2019-cu il martın 1-də Pekin şəhərində imzalanmış Protokol təsdiq edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsində göstərilən Protokol qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

**3.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Protokolun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Çin Xalq Respublikası Hökumətinə bildiriş göndərsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 15 aprel 2019-cu il.**

# HÜQUQ İSLAHATLARI YENİ MƏRHƏLƏYƏ QƏDƏM QOYUR

**Təcrübə göstərir ki, cəmiyyət həyatının istənilən sahəsində inkişafın, fəaliyyət dinamizminin və ahəngdarlığının təmin edilməsi yeni yanaşmaların tətbiqini, daha dəqiq ifadə etsək zamanın nəbzini tutan islahatların həyata keçirilməsini tələb edir. Prezident İlham Əliyevin rəhbərliyi ilə son 15 ildə respublikamızın nail olduğu və daim yüksələn xətlə artan inkişaf göstəriciləri aparılmış islahatların labüdlüyünün və uğurlu nəticəsinin ən gözəl nümunələri kimi beynəlxalq səviyyədə təqdir olunur. Belə ki, siyasi, sosial-iqtisadi, mədəni-humanitar nailiyyətlərimizin hər biri məhz ardıcıl və sistemli islahatların nəticəsində mümkün olmuşdur.**




## Məhkəmə-hüquq sistemi daha da təkmilləşəcək

Prezident İlham Əliyevin and içərək yeni müddətə öz səlahiyyətlərinin icrasına başlamasından bir il ötür. 2018-ci il aprelin 18-də Milli Məclisdə keçirilən andiçmə mərasimində möhtərəm Prezident İlham Əliyev hər bir sahə üzrə konkret proqram və planların olduğunu, qarşıdakı dövrdə islahatların dərinləşəcəyini bəyan etdi. Bəli, geridə qoyduğumuz bir il cənab Prezidentin elan etdiyi prioritetlərin sürətlə reallaşması, ölkədə islahatların yeni mərhələyə qədəm qoyması və indiyədək qazanılan uğurların miqyasının daha da genişlənməsi ilə əlamətdardır.

Novruz bayramı münasibətilə xalqımızı təbrikində Azərbaycanın tarixdə heç vaxt indiki qədər güclü olmadığını bəyan edən Prezident İlham Əliyev islahatların daha da dərinləşəcəyini, o cümlədən məhkəmə-hüquq sistemində islahatların keçiriləcəyini bildirdi: **"İslahatlar dərinləşəcək. İslahatlara alternativ yoxdur. Siyasi islahatlar, iqtisadi islahatlar, sosial sahədə islahatlar, məhkəmə-hüquq sistemində islahatlar, - artıq müvafiq göstərişlər verilib və sənədlər paketi hazırlanır, - təhsil, səhiyyə sahələrində, hər bir sahədə, Azərbaycan yeni dövrə qədəm qoyub. Azərbaycan yeniləşir, Azərbaycan güclənir və müasirləşir. Biz dərin milli-mənəvi köklər üzərində güclü dövlət qurmuşuq. Azərbaycan tarixdə heç vaxt indiki qədər güclü olmamışdır. Ancaq o demək deyil ki, əldə edilmiş bu nailiyyətlərlə kifayətlənməliyik. Əldə edilmiş nailiyyətlər bizi gələcəyə daha da nikbinliklə baxmağa həvəsləndirir, buna sövq edir".** Beləliklə, Prezident İlham Əliyevin "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 3 aprel 2019-cu il tarixli Fərmanı ilə bu ildən başlanan yeni islahatların sırasına biri də əlavə olundu. Fərmanda qeyd olunduğu kimi ölkəmizin davamlı tərəqqisinin təmin edilməsi üçün bütün sahələrdə həyata keçirilən islahatlar məhkəmə-hüquq sisteminin inkişafında yeni mərhələnin başlanmasını və daha da dərinləşdirilməsini zəruri edir.

Göründüyü kimi cənab Prezident respublikamızın daha da inkişafı naminə islahatların əsas aparıcı sahələrdə kompleks şəkildə həyata keçirilməsini və bir-birini tamamlamasını zəruri hesab edir. Yuxarıda qeyd edildiyi kimi ötən bir il ayrı-ayrı sahələrdə həyata keçirilən köklü islahatlarla əlamətdardır. Qarşıya qoyulan hədəflərə daha sürətlə çatmaq və sanballı nəticələr əldə etmək üçün isə digər sahələr kimi ölkənin hüquq sisteminin də müasir çağırışlara adekvat cavab verməsi vacibdir. Çünki məhz təkmil və şəffaf hüquq sistemi cəmiyyətdə sosial harmoniyanın, hüquqi bərabərliyin və vətəndaş məmnunluğunun təmin olunmasında mühüm rol oynayır. Bu baxımdan məhkəmə-hüquq sisteminə cəmiyyətdə ən yüksək etimad formalaşmalı, hər bir vətəndaş ədalət mühakiməsinin məhz ədaləti təmin edəcəyinə tam əmin olmalıdır.

Müstəqillik tariximizə nəzər salsaq görərik ki, həyata keçirilən hüquqi islahatlar hər bir mərhələdə dövrün nəbzini tutmaqla bu vəzifələri uğurla yerinə yetirmişdir. Müstəqillik illərində Azərbaycanda hüquqi islahatların keçirilməsinin vacibliyi 1991-ci il oktyabrın 18-də qəbul edilən "Azərbaycan Respublikasının Müstəqilliyi haqqında Konstitusiya Aktı"nda öz əksini tapmışdı. Lakin müstəqilliyimizin ilk illərində bu istiqamətdə praktiki olaraq heç bir addım atılmadı, yeni dövrün çağırışlarına cavab verən hüquq sisteminin formalaşdırılmasına təşəbbüs göstərilmədi. Yalnız 1993-cü ildə ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlişi bütün sahələrdə olduğu kimi ölkənin hüquq sistemində də müasir çağırışlara uyğunlaşmanın əsasını qoydu. Bu baxımdan müstəqil, müasir Azərbaycanda hüquq sisteminin formalaşdırılmasının və inkişafının banisi ümummilli lider Heydər Əliyevdir.

## Prokurorluğun fəaliyyətində yeni mərhələ

Ulu öndərin 1993-cü ildə Prezident seçilməsindən sonra bütün sahələrdə yeni islahatlara start verildi. Buna qədər yeni demokratik şəraitin tələblərinə cavab verməyən, sovet dövrünün ideoloji ənənələri çərçivəsində fəaliyyət göstərən hüquq sistemi də islahatlar çərçivəsində müasir çağırışlara uyğun dəyişikliklərə məruz qaldı. Bu sahədə fəaliyyət göstərən dövlət təsisatları - prokurorluq və məhkəmə orqanları yeni siyasi-iqtisadi formasiyanın şərtləri çərçivəsində yenidən formalaşdırıldı.

Ulu öndərin müəllifliyi ilə hazırlanan və 12 noyabr 1995-ci il tarixində referendumla qəbul edilən müstəqil Azərbaycanın ilk Konstitusiyası hakimiyyət bölgüsü prinsiplərini özündə ehtiva etməklə zamanın tələbi ilə səsləşən hüquqi islahatların həyata keçirilməsinə, o cümlədən prokurorluq orqanlarının fəaliyyətinin keyfiyyətcə yeniləşməsinə və müasirləşməsinə yol açdı. Beləliklə, dövlət quruculuğunun parlaq səhifələrindən biri kimi Azərbaycan Prokurorluğunun da sivil və demokratik məzmunlu bir qurum kimi tam yenidən formalaşması ölkəmizdə həyata keçirilən hüquq islahatlarının memarı kimi Heydər Əliyevin dövlətçilik siyasəti, onun qayğısı və dəstəyi nəticəsində mümkün oldu. Öz fəaliyyətində və səlahiyyətlərində qanunçuluğa, dövlətçiliyə xidməti əsas götürən, bitərəflilik, qərəzsizlik və obyektivlik kimi prinsiplərə sadiq olan prokurorluq tezliklə nüfuzlu orqan kimi fərqlənməyə başladı.

Azərbaycan Prokurorluğunun tarixi 1918-ci il oktyabrın 1-dən başlayır. Məhz ümummilli lider Heydər Əliyevin dövlətimizin və prokurorluğun tarixinə yüksək ehtiramının nəticəsi olaraq 1998-ci ildən hər il oktyabr ayının 1-i Prokurorluq işçilərinin peşə bayramı kimi qeyd olunmağa başlamışdır. Peşə bayramı gününün təsis edilməsi prokurorluğa böyük qayğının ifadəsi olmaqla yanaşı, prokurorluq əməkdaşlarının fəaliyyətinin layiqincə dəyərləndirilməsinin təzahürüdür.

Prokurorluğun inkişafında növbəti mərhələ 2000-ci il aprelin 26-dan başlayır. Həmin gün Heydər Əliyev prokurorluq orqanlarının rəhbər işçiləri ilə görüşmüşdü. Bir neçə gün sonra 19-cu ili tamam olacaq bu tarixi görüş respublikamızın prokurorluq orqanlarının fəaliyyətinin müasir dövrün tələblərinə uyğun formlaşdırılmasını yeni mərhələyə qaldırdı. Həmin tarixdən sonra başladılan yeni islahatlar nəticəsində köklü struktur dəyişiklikləri həyata keçirildi, prokurorluq orqanları tamamilə yenidən formalaşdırıldı, onun daha səmərəli fəaliyyəti üçün hüquqi baza bir daha təkmilləşdirildi. Ulu öndərin tövsiyə və göstərişlərinə müvafiq olaraq həyata keçirilən tədbirlər çərçivəsində prokurorluğun demokratik məzmunda yenilənməsi, neqativ təzahürlərin aradan qaldırılması, müasir standartlar səviyyəsində işləməyə qadir olan kadr korpusunun formalaşdırılması, cinayətkarlığa qarşı çevik mübarizə, insan hüquq və azadlıqlarının müdafiəsi işinin zəruri tələblər səviyyəsinə qaldırılması təmin edildi. 2002-ci ildə Konstitusiyaya edilən dəyişikliklər isə prokurorluq orqanlarının hüquq sistemindəki yerini və rolunu daha da gücləndirdi, ona yeni səlahiyyət verdi. Belə ki, bundan sonra prokurorluq qanunvericilik təşəbbüsü hüququ ilə çıxış etməyə başladı. Bu mütərəqqi yenilik prokurorluq orqanlarına qanunçuluğun, ədalət mühakiməsinin və dövlət ittihamının təmini ilə yanaşı, qanun yaradıcılığı prosesində fəal iştirak imkanları yaratdı.

Ümummilli lider Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı olan Prezident İlham Əliyevin rəhbərliyi ilə hüquq sisteminin müasirləşdirilməsi konsepsiyası çərçivəsində həyata keçirilmiş uğurlu islahatlar nəticəsində respublikamızda qanunun aliliyi təmin edilməklə, ədalət mühakiməsinin inkişafı istiqamətində mühüm addımlar atılmışdır. Belə ki, 2003-cü ildən ötən dövrdə Prezident İlham Əliyevin dövrün nəbzini tutmaqla reallaşdırdığı yeni islahatlar hüquq sistemindən də yan ötməmiş, bu sahədə yeni keyfiyyət dəyişikliklərinə yol açmışdır. Xüsusilə qeyd etməliyik ki, dövlət başçısının 27 sentyabr 2008-ci il tarixli sərəncamına əsasən həyata keçirilən "Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin müasirləşdirilməsinə dair 2009-2011-ci illər üçün Dövlət Proqramı" prokurorluq orqanlarının fəaliyyətinin və strukturunun təkmilləşdirilməsi, kadr potensialının gücləndirilməsi, yeni nəsil prokurorların formalaşdırılması və peşəkarlığının artırılması, habelə prokurorluğun maddi-texniki bazasının möhkəmləndirilməsi və işçilərinin sosial müdafiəsinin yüksəldilməsində mühüm rol oynamışdır. Bununla həm də qanunçuluğun, cəmiyyətin və dövlətin maraqlarının qorunmasında, insan hüquq və azadlıqlarının müdafiəsində prokurorluğun rolu daha da yüksəlmişdir. Bundan başqa, Dövlət Proqramı prokurorluq orqanlarının fəaliyyətində müasir elmi-texniki nailiyyətlərdən istifadə edilməsinə, son informasiya-kommunikasiya texnologiyalarının geniş tətbiqinə, ibtidai araşdırmaya prosessual rəhbərliyin həyata keçirilməsində və dövlət ittihamının müdafiəsində peşəkarlığın artırılmasına, bir sözlə, prokurorluq orqanlarının işinin və qarşısında dayanan vəzifələrin günün tələblərinə uyğun şəkildə daha yüksək səviyyədə qurulmasına böyük təkan vermişdir.

Bütün bunlar göstərir ki, dövrün çağırış və tələblərinə uyğun olaraq prokurorluq orqanlarının keçdiyi inkişaf yolu dinamik olmuşdur. Bunun da nəticəsində hüquq sisteminin aparıcı qolu olan prokurorluğun status və səlahiyyətlərində mütərəqqi dəyişikliklər baş vermişdir. Bu gün də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən prokurorluğa daim diqqət və qayğı göstərilir, fəaliyyətimizin daha da təkmilləşdirilməsi, əməkdaşlarımızın maddi-sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində müvafiq tədbirlər görülür. Mütəmadi olaraq prokurorluq əməkdaşlarının yüksək dövlət mükafatlarına və ali xüsusi rütbələrə layiq görülməsi, onların sosial-maddi vəziyyətinin yaxşılaşdırılması və prokurorluğun strukturunun daha da təkmilləşdirilməsi, maddi-texniki bazasının daha da möhkəmləndirilməsi istiqamətində görülən tədbirlər fəaliyyətimizin səmərəliliyinin artırılmasında əhəmiyyətli rol oynayır.

Prokurorluq orqanlarındakı yenilənmə prosesi daimidir. Hər il gənc kadrlar işə qəbul edilir, vəzifədə irəli çəkilir, yeni iş ruhu, canlanma və inkişaf hiss olunur. Baş prokuror Zakir Qaralovun rəhbərliyi ilə prokurorluq orqanlarında sağlam iş mühitinin qorunub saxlanılması, düzgün kadr siyasətinin həyata keçirilməsi təmin edilir, fəaliyyətimizin hər bir məqamında qanunçuluq və dövlətçilik prinsipləri önə çəkilir. İnamla demək olar ki, indiyədək həyata keçirilmiş islahatların nəticəsi olaraq cəmiyyətimizdə prokurorluq orqanlarına inam və etimad daha da yüksəlmiş, prokurorluğun ictimai nüfuzu daha da artmışdır.

Respublikada davamlı şəkildə həyata keçirilən hüquqi islahatların nəticəsi olaraq Bakı Şəhər Prokurorluğu da ötən illərdə öz fəaliyyətini təkmilləşdirmiş, səlahiyyətləri daxilində qarşısında duran xidməti vəzifələrin layiqincə təmin olunması baxımından nailiyyətlərə imza atmışdır. Bu gün Bakı Şəhər Prokurorluğu və tabe rayon prokurorluqları respublikamızın Konstitusiyasını, "Prokurorluq haqqında" Azərbaycan Respublikasının Qanununu və digər qanunvericilik aktlarını, Baş prokurorun əmr, sərəncam və göstərişlərini rəhbər tutaraq paytaxtımızda cinayətkarlığa qarşı mübarizədə, qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsində, vətəndaşların hüquq və mənafelərinin təmini sahəsində vəzifələrini layiqincə yerinə yetirirlər.

## Ədalət mühakiməsinin keyfiyyət və şəffaflığı artacaq

Prezident İlham Əliyevin "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 3 aprel 2019-cu il tarixli Fərmanında müasir dövrün tələblərinə cavab verən, cəmiyyətdə yüksək nüfuza malik ədalət mühakiməsinin formalaşdırılması prosesini sürətləndirmək məqsədilə məhkəməyə müraciət imkanlarının daha da genişləndirilməsi, məhkəmələrin fəaliyyətində şəffaflığın artırılması, məhkəmə icraatının effektivliyinin yüksəldilməsi, məhkəmə qərarlarının tam və vaxtında icra edilməsinin təmin olunması, süründürməçiliyin və digər neqativ halların aradan qaldırılmasının vacibliyi önə çəkilir. Ədalət mühakiməsinin keyfiyyətinin və səmərəliliyinin artırılması məqsədilə Azərbaycan Respublikasının bütün məhkəmələrinin sədrlərinə və hakimlərinə tövsiyə edilir ki, məhkəmə hakimiyyətinin nüfuzunun artırılması və cəmiyyətdə məhkəmələrə etimadın möhkəmlənməsi üçün fəaliyyətlərində ədalət, qanunçuluq, qərəzsizlik, aşkarlıq, hər kəsin qanun və məhkəmə qarşısında bərabərliyi və Azərbaycan Respublikasının Konstitusiyası və qanunlarında təsbit edilmiş ədalət mühakiməsinin digər prinsiplərinə dönmədən riayət etsinlər.

Fərmanda yer alan tövsiyə və tapşırıqların yerinə yetirilməsi ilə hakimlərin müstəqilliyini təmin etmək üçün məhkəmələrin fəaliyyətinə müdaxilənin qarşısının alınması mexanizmləri təkmilləşdiriləcək, müdaxiləyə görə məsuliyyət artırılacaq. Həmçinin məhkəmə icraatının obyektivliyini daha dolğun şəkildə təmin etmək üçün bütün məhkəmə iclaslarının fasiləsiz audioyazısı aparılacaq, protokollar məhkəmə iclasının audioyazısına uyğun tərtib olunacaq. Hakimlərin müstəqilliyinin təmin edilməsi, məhkəmələrin fəaliyyətinə müdaxilə və digər neqativ halların aradan qaldırılması məqsədilə müvafiq məlumatların qəbulu üçün qaynar xətt yaradılacaq. Hakimlərin və məhkəmə sədrlərinin peşəkarlıq səviyyəsinin qiymətləndirilməsi prosedurlarında şəffaflıq daha da artırılacaq, bu sahədə tətbiq edilən meyarlar təkmilləşdiriləcək, məhkəmələrdə işlər təsadüfi və avtomatik şəkildə elektron qaydada bölüşdürüləcək. Qeyri-prosessual münasibətlərin yolverilməzliyinin təmin edilməsi, "Elektron icra" informasiya sisteminin tətbiqinin genişləndirilməsi, icra məmurlarının süründürməçilik və sui-istifadə hallarına yol vermələrinin qarşısının alınması, məhkəmələrin və digər orqanların qərarlarının icrasının sürətləndirilməsi və effektivliyinin artırılması məqsədilə bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi, ədalət mühakiməsinin əlçatanlığını və şəffaflığını daha da artırmaq məqsədilə "Elektron məhkəmə" informasiya sisteminin tətbiqi ilə əlaqədar təşkilati işlərin yekunlaşdırılması, mediasiya prosesinin tətbiqi ilə bağlı maarifləndirmə və təşviqat tədbirlərinin həyata keçirilməsi də yeni hüquqi islahatların əsas tərkib hissələri olacaq. Fərmana əsasən ölkəmizin hüquq sistemindəki yeniliklərdən biri də sahibkarların məhkəməyə müraciət imkanlarının asanlaşdırılması üçün ixtisaslaşmış məhkəmənin yaradılması olacaq.

## Prokurorluq orqanları islahatlara layiqli töhfə verəcək

Ölkədə hüquq institutlarının inkişafı, normativ-hüquqi bazanın, hüquq-müdafiə sisteminin təkmilləşdirilməsi ilə əlaqədar aparılan davamlı məhkəmə-hüquq islahatları bu sahədə prokurorluq orqanlarının fəaliyyətinin müasir dövrün tələblərinə uyğun təşkilini, habelə insan hüquq və azadlıqlarının, ictimai maraqların yüksək peşəkarlıq səviyyəsində müdafiə olunmasını zəruri edir. Cənab Prezidentin Fərmanında prokurorluq orqanlarının da fəaliyyət dairəsinə daxil olan məsələlər əksini taparaq bununla bağlı tövsiyələr verilmişdir. Belə ki, cəza siyasətinin humanistləşdirilməsi və cinayətlərin dekriminallaşdırılması üzrə tədbirlərin davam etdirilməsi ilə əlaqədar Azərbaycan Respublikasının Baş Prokurorluğuna və Ali Məhkəməyə tövsiyə edilir, habelə Ədliyyə Nazirliyinə tapşırılır ki, müvafiq qanun layihələrini hazırlayıb üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsinlər.

Bundan başqa, Fərmanda Baş Prokurorluğa tövsiyə edilir ki, məhkəmələrdə dövlət ittihamının müdafiəsi və protest verilməsi təcrübəsini mütəmadi təhlil etsin və bu fəaliyyətin keyfiyyətinin artırılması üçün tədbirlər görsün.

Azadlığın cəmiyyətin ən ümdə və zəruri şərti olduğunu dəfələrlə vurğulayan Prezident İlham Əliyev qəbul etdiyi hüquqi aktlar və əfv sərəncamları ilə cəzadan azad etmənin tərbiyəvi əhəmiyyətinə xüsusi önəm verdiyini, şəxsi cəmiyyətdən təcrid etmədən islah etmənin daha effektiv və səmərəli olduğunu göstərib. Prezident İlham Əliyevin 2017-ci il fevralın 10-da imzaladığı "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" sərəncamı da dövlət başçısının humanist siyasətinin bariz təzahürüdür. Bu sərəncamda qarşıya qoyulmuş tapşırıqların və tövsiyələrin vaxtında yerinə yetirilməsini təmin etmək məqsədilə iki il əvvəl Baş Prokurorluq, Ali Məhkəmə, Ədliyyə və Daxili İşlər nazirliklərinin əməkdaşlarından ibarət işçi qrupu qısa zaman kəsiyində səmərəli təkliflər irəli sürdü. Daha sonra həmin təkliflər əsasında hazırlanmış qanun layihəsi ölkə Prezidentinin qanunvericilik təşəbbüsü qaydasında Milli Məclisə təqdim olundu. Milli Məclisdə qəbul edilən və 2017-ci il dekabrın 1-dən qüvvəyə minən Qanuna əsasən Cinayət Məcəlləsinə ümumilikdə 300-ə yaxın dəyişiklik edildi. Nəticədə Cinayət Məcəlləsində indiyədək nəzərdə tutulmuş 18 növ cinayət əməli dekriminallaşdırıldı və ən əsası məcəlləyə cinayət məsuliyyətinə alternativ olan tədbirlərin tətbiqini əsaslandıran yeni müddəalar əlavə edildi. Bununla da 152 növ cinayətin sanksiyasına azadlıqdan məhrum etməyə alternativ cəzalar əlavə edilərək cəza siyasəti humanistləşdirildi. Bunun nəticəsidir ki, ötən müddət ərzində istintaq zamanı həbs edilmiş şəxslərin sayında 30 faiz azalma baş vermişdir.

## Dövlət ittihamı ən layiqli kadrlara həvalə olunacaq

Prezident İlham Əliyevin "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 3 aprel 2019-cu il tarixli Fərmanından irəli gələn vəzifələrin təxirə salınmadan icrasını təmin etmək məqsədilə aprelin 9-da Azərbaycan Respublikasının Baş prokuroru Zakir Qaralovun sədrliyi ilə geniş əməliyyat müşavirəsi keçirilmişdir. Müşavirədə Fərmandan irəli gələn vəzifələrin vaxtında və səmərəli icrasını təmin etmək üçün cəza siyasətinin humanistləşdirilməsi və cinayətlərin dekriminallaşdırılması üzrə tədbirlərin davam etdirilməsi ilə əlaqədar müvafiq qanun layihələrinin hazırlanmasının, həmçinin məhkəmələrdə dövlət ittihamının müdafiəsi və protest verilməsi təcrübəsininin mütəmadi təhlil edilməsinin zəruriliyi diqqətə çatdırılmışdır. Həmçinin Fərmandan irəli gələn məsələlərin yerinə yetirilməsi məqsədilə 4 aprel 2019-cu il tarixdə Baş Prokurorluqda İşçi Qrupu da yaradılmışdır. İlkin mərhələdə isə Fərmandan irəli gələn vəzifələrin icrası ilə əlaqədar olaraq cinayət mühakimə icraatında dövlət ittihamçıları qarşısında qoyulmuş vəzifələrin daha səmərəli həyata keçirilməsi, bu sahədə fəaliyyətin təkmilləşdirilməsi, həmçinin müəyyən edilmiş nöqsan və çatışmazlıqların aradan qaldırılması məqsədilə 9 aprel 2019-cu il tarixdə Azərbaycan Respublikasının Baş prokuroru tərəfindən sərəncam imzalandı. Bakı şəhər prokurorluğunun Dövlət ittihamının müdafiəsi üzrə şöbəsində isə mövcud vəzifələrin yüksək nəzəri bilik və peşə hazırlığı ilə fərqlənən təcrübəli prokurorluq işçiləri hesabına komplektləşdirilməsi üçün müsabiqə elan olunması qərara alınmış və komissiya yaradılmışdır. Artıq Bakı Şəhər Prokurorluğunun Dövlət ittihamının müdafiəsi üzrə şöbəsinin yeni tərkibdə formalaşdırılması məqsədilə 2 böyük prokuror və 23 prokuror vəzifəsinə təyinatla əlaqədar müsabiqə elan edilmişdir. Növbəti mərhələdə dövlət ittihamının müdafiəsini həyata keçirən bütün prokurorlar eyni prosedurlar əsasında müsabiqə yolu ilə vəzifəyə təyin olunacaqlar.

Azərbaycan Prokurorluğu tərəfindən digər hüquq-mühafizə orqanları, - ədliyyə, daxili işlər, məhkəmə ilə əlaqəli şəkildə ölkədə ictimai-siyasi sabitliyin qorunması, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində zəruri tədbirlərin həyata keçirilməsi təmin olunur. Bu gün prokurorluq orqanları Prezident İlham Əliyevin respublikamızın yüksəlişinə xidmət edən siyasi kursunun uğurla reallaşması istiqamətində, cəmiyyətdə qanunçuluğun, ictimai-siyasi sabitliyin, əmin-amanlığın, hər kəsin hüquq və mənafeyinin qorunmasına əzmlə xidmət edirlər. Öz fəaliyyətini daim bu prinspilər üzərində quran prokurorluq orqanları dövlət başçısının məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi ilə bağlı Fərmanında qarşıya qoyulan məsələləri də yüksək səviyyədə yerinə yetirəcək, hüquqi islahatların dərinləşməsinə özünün layiqli töhfələrini verəcəklər. O cümlədən Bakı Şəhər Prokurorluğu da cinayətkarlığa qarşı qətiyyətli mübarizə aparan, bu sahədə daim profilaktik tədbirlər görən, müvafiq ərazilərdə qanunların eyni cür və dürüst icrasını təmin edən bir orqan kimi bundan sonra da üzərlərinə düşən bütün vəzifələri yüksək keyfiyyətlə yerinə yetirəcək, peşə prinsiplərinə sədaqətlə xidmət etməklə öz işini ölkə qanunvericiliyinin və Azərbaycan Prezidentinin müəyyən etdiyi tələblər səviyyəsində quracaq, insan hüquq və azadlıqlarının müdafiəsində, qanunçuluğun təmin edilməsində yeni nailiyyətlər əldə edəcək.

**Bütövlükdə, hüquqi islahatların dərinləşdirilməsini nəzərdə tutan yeni fərman məhkəmə-hüquq sisteminin daha da inkişafını, fəaliyyətin müasir standartlar səviyyəsinə çatdırılmasını təmin edəcək və bu sahədə ən demokratik ənənələrin bərqərar olması baxımından mühüm addımdır.**

**İlqar ABBASOV,**
**Bakı şəhər prokuroru,**
**III dərəcəli dövlət ədliyyə müşaviri.**

# Azərbaycan ilə Çin arasında texniki yardım sahəsində əməkdaşlığa dair Saziş imzalanıb



**Aprelin 17-də Nazirlər Kabinetində Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında texniki yardım (qrant) sahəsində əməkdaşlığa dair Saziş imzalanıb.**

AZƏRTAC xəbər verir ki, Sazişi Azərbaycanın Baş nazirinin müavini Əli Əhmədov və Çinin ölkəmizdəki səfiri Vey Cinhua imzalayıblar.

Baş nazirin müavini Əli Əhmədov Azərbaycan ilə Çin arasında əməkdaşlığın inkişafından danışıb. O deyib ki, yüksək səviyyəli qarşılıqlı səfərlər zamanı bu əməkdaşlığın daha da inkişaf etdirilməsi ilə bağlı ətraflı müzakirələr aparılıb. Çin Azərbaycanın ərazi bütövlüyünü, Azərbaycan da "Vahid Çin" siyasətini birmənalı şəkildə dəstəkləyir. Azərbaycan Çin Xalq Respublikasının Sədri Si Cinpinin irəli sürdüyü "Bir kəmər, bir yol" təşəbbüsünü dəstəkləyir və bu layihənin həyata keçirilməsində yaxından iştirak edir.



Səfir Vey Cinhua deyib ki, Çin ilə Azərbaycan yaxşı dost və yaxın tərəfdaşdır. Diplomat 2015-ci ildə Prezident İlham Əliyevin Çinə dövlət səfərini xatırladıb, bu səfər çərçivəsində hər iki ölkənin liderləri tərəfindən əməkdaşlıqla bağlı imzalanmış sənədlərin əhəmiyyətini qeyd edib. Səfir vurğulayıb ki, Azərbaycan və Çin rəhbərlərinin dəstəyi ilə ölkələrimiz arasındakı siyasi, iqtisadi, mədəni və digər sahələrdə əməkdaşlıq inkişaf edir.

AZƏRTAC

# Daxili İşlər Nazirliyində geniş kollegiya iclası keçirilib





**Aprelin 17-də Daxili İşlər Nazirliyində "Təqsirləndirilən və xəbərsiz itkin düşmüş şəxslərin axtarışı", "İctimai yerlərdə baş verən cinayətlərin profilaktikası" və "Şəxsi heyətin peşə hazırlığının təşkili" sahələrində görülən işlərin vəziyyətinə həsr olunmuş geniş kollegiya iclası keçirilib.**

Nazirliyin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, daxili işlər naziri, general-polkovnik Ramil Usubov müzakirəyə çıxarılan məsələlərin əməliyyat-xidməti fəaliyyətin mühüm sahələrini əhatə etdiyini, habelə insanların həyatının, sağlamlığının, qanuni mənafelərinin, hüquq və azadlıqlarının etibarlı qorunmasının baxımından böyük əhəmiyyətə malik olduğunu vurğulayıb. Son illər ölkədə uğurla həyata keçirilən islahatlar, quruculuq işləri və hüquq mühafizə siyasəti çərçivəsində daxili işlər orqanlarında da fəaliyyətin beynəlxalq standartlara uyğun təkmilləşdirilməsi üzrə əhəmiyyətli işlər görüldüyünü, qarşıda duran vəzifələri yerinə yetirməyə qadir olan peşəkar kadr özəyinin formalaşdırıldığını diqqətə çatdırıb.

Sonra gündəlikdəki məsələlər barədə məruzə ilə çıxış edən Baş Cinayət Axtarışı İdarəsinin rəisi, polis general-mayoru Arzu Daşdəmirov, Baş İctimai Təhlükəsizlik İdarəsinin rəisi, polis general-mayoru Oqtay Kərimov və Baş Kadrlar İdarəsinin rəisi, polis general-mayoru Rafiq Abbasov olunan məsələlərə bağlı respublikanın daxili işlər orqanları tərəfindən görülən işləri, xidməti fəaliyyətdə əldə olunmuş nəticələri, mövcud olmuş nöqsan və çatışmazlıqları diqqətə çatdıraraq onların aradan qaldırılması yollarından və qarşıda duran vəzifələrdən danışıblar.

Məruzələr ətrafında çıxış edən bir sıra şəhər, rayon polis orqanlarının rəisləri gündəlikdəki məsələlər üzrə, həmçinin cinayətkarlıqla mübarizə və ictimai asayişin təmini sahəsində həyata keçirilən tədbirlər barədə məlumat verərək iclasda səsləndirilən iradların təzliklə aradan qaldırılacağına söz veriblər.

İclasa yekun vuran daxili işlər naziri Ramil Usubov əvvəlki dövrlərdə olduğu kimi, cari ilin birinci rübündə də respublikada cinayətkarlıqla mübarizədə, daxili təhlükəsizliyin, insan hüquq və azadlıqlarının qorunması sahəsində əldə olunmuş müsbət nəticələrin inkişaf etdirildiyini, bu işdə prokurorluq, dövlət təhlükəsizliyi və digər hüquq mühafizə orqanları ilə birgə səmərəli fəaliyyətin mühüm rol oynadığını vurğulayıb. O, gündəlikdəki məsələlər üzrə görülən işlərin bütövlükdə qənaətbəxş olduğunu, eyni zamanda, bəzi ərazi orqanlarının işində müəyyən nöqsan və çatışmazlıqların mövcudluğunu qeyd edərək onların aradan qaldırılması üçün adekvat tədbirlərin görülməsini tələb edib, həmçinin əməliyyat-xidməti fəaliyyətin bir sıra vacib istiqamətləri üzrə və aktual məsələlərə dair konkret tapşırıq və tövsiyələrini verib.

Vurğulanıb ki, təqsirləndirilən və itkin düşmüş şəxslərin axtarışı üzrə tədbirlər, ictimai yerlərdə baş verən cinayətlərin profilaktikası, şəxsi heyətin peşə hazırlığı sahələrində fəaliyyət gücləndirilməli, hər bir orqan və hissədə qanunçuluq, nizam-intizam möhkəmləndirilməli, vətəndaşların qəbuluna, onların müraciətlərinə daha həssas münasibət göstərilməli, hər bir ərizə və şikayətə vaxtında və operativ baxılmalı, ümumən şəxsi heyətin tapşırılmış sahəyə məsuliyyətinin yüksəldilməsi istiqamətində işlər böyük əzmlə davam etdirilməlidir.

Nazir Ramil Usubov Azərbaycan Prezidenti İlham Əliyevi əmin edib ki, daxili işlər orqanlarının şəxsi heyəti qanunvericilikdə müəyyən edilmiş vəzifələrin, qarşıya qoyulan bütün tapşırıqların öhdəsindən bundan sonra da layiqincə gələcək, ölkədə sabitliyin, əmin-amanlığın, dövlətin və vətəndaşların qanuni mənafelərinin hüquqazidd əməllərdən etibarlı qorunması üçün qüvvə və bacarığını əsirgəməyəcək.

AZƏRTAC

# Bakıda keçirilən Narkotiklərlə Mübarizə üzrə XXXVI Beynəlxalq Konfrans işini başa çatdırıb





**Azərbaycan Respublikası Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının və Amerika Birləşmiş Ştatlarının Ədliyyə Departamentinin Narkotiklərlə Mübarizə Administrasiyasının birgə təşkilatçılığı ilə Bakıda keçirilən Narkotiklərlə Mübarizə üzrə XXXVI Beynəlxalq Konfrans (İDEC) aprelin 17-də işini başa çatdırıb.**

AZƏRTAC xəbər verir ki, konfransın bağlanış mərasimində çıxış edən ABŞ Ədliyyə Departamentinin Narkotiklərlə Mübarizə Administrasiyası (DEA) rəhbərinin səlahiyyətlərini icra edən Uttam Dillon narkotiklərin qanunsuz dövriyyəsinə qarşı uğurlu mübarizədə beynəlxalq əməkdaşlığın və tərəfdaşlığın vacibliyini qeyd etdi. Bildirdi ki, bu mübarizənin bütün iştirakçıları uğur qazanmaq üçün yüksək əzmkarlıq və güclü həmrəylik nümayiş etdirməlidirlər. Bu prosesdə yaxşı əlaqələndirilmiş fəaliyyət, düşünülmüş proqram və strategiyaların hazırlanması və uğurla reallaşdırılması vacib əhəmiyyət daşıyır. DEA öz fəaliyyətində məhz bu prinsiplərin həyata keçirilməsinə çalışır.

Narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizədə qarşılıqlı məlumat və təcrübə mübadiləsinin vacibliyini diqqətə çatdıran Uttam Dillon DEA-nın bu sahədə müxtəlif beynəlxalq təşkilatlarla və ölkələrlə fəal əməkdaşlıq etdiyini deyib. O, Bakı konfransının yüksək səviyyədə təşkil olunduğunu və mühüm müzakirələrin aparıldığını vurğulayaraq dedi ki, Azərbaycan paytaxtından dünyaya yeni mesajlar göndərildi.

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük general-leytenantı Səfər Mehdiyev bəşəriyyəti narahat edən başlıca problemlərdən olan narkomanlıq və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizəyə həsr olunmuş beynəlxalq konfransda səmərəli müzakirələrin aparıldığını bildirdi. Səfər Mehdiyev dedi ki, bu gün dünyada qaçaqmalçılıq, o cümlədən narkotik vasitələrin qanunsuz dövriyyəsi bu sahədə peşəkar olan mütəşəkkil qruplar tərəfindən həyata keçirildiyi üçün ona qarşı mübarizə olduqca çətindir. Ona görə də aidiyyəti qurumlar və dövlətlər fəal informasiya və təcrübə mübadiləsi aparmalı, bu sahədə çalışan əməkdaşların peşəkarlığı artırılmalı, cəmiyyətdə geniş maarifləndirmə işi həyata keçirilməlidir. Bu mübarizədə yalnız birgə fəaliyyət və sıx əməkdaşlıq şəraitində qalib gəlmək mümkündür. Bakı konfransının da ən böyük əhəmiyyəti burada məhz beynəlxalq əməkdaşlığın, təcrübə və informasiya mübadiləsinin öneminin diqqət mərkəzində saxlanmasıdır.

Mötəbər konfransın ölkəmizdə yüksək səviyyədə təşkili ilə bağlı tapşırıqlarına və bilavasitə dəstəyinə görə dövlətimizin başçısı İlham Əliyevə xüsusi minnətdarlığını bildirən Səfər Mehdiyev dedi ki, bu tədbirin ölkəmiz üçün əhəmiyyətini artıran ən mühüm amillərdən biri də dünyanın 115 ölkəsindən gəlmiş əcnəbi qonaqların Azərbaycanın qədim tarixi, zəngin mədəniyyəti, dünyaya örnək təşkil edən multikultural ənənələri ilə tanış olmaq imkanıdır.

Səfər Mehdiyev çıxışının sonunda konfransın Bakıda keçirilməsi təşəbbüsünə görə DEA-ya, eləcə də tədbirin təşkilində zəhməti olan qurumlara və şəxslərə minnətdarlığını ifadə etdi.

Azərbaycan Respublikası Baş nazirinin müavini, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının sədri Əli Həsənov Narkotiklərlə Mübarizə üzrə XXXVI Beynəlxalq Konfransda narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə ilə bağlı səmərəli müzakirələrin, fikir və təcrübə mübadiləsinin aparılmasını yüksək qiymətləndirdi. Baş nazirin müavini diqqətə çatdırdı ki, konfrans çərçivəsində regional qrupların sessiyalarında müxtəlif qurumların, ölkələrin nümayəndələri maraqlı məruzələrlə çıxış etdilər, fəal müzakirələr apardılar.

Əli Həsənov bildirdi ki, konfransda 100-dən çox ölkənin təmsil olunması narkomaniyanın və narkotik vasitələrin qanunsuz dövriyyəsinin çox ciddi təhlükə olduğunun və bunun dövlətləri xeyli dərəcədə narahat etdiyini göstərir. Çünki narkomaniya və narkotik vasitələrin qanunsuz dövriyyəsi bəşəriyyətin gələcəyini təhdid edən ən başlıca problemlərdən biridir. Müharibələr və terrorizmin fəsadları dərhal hiss olunur. Lakin narkomaniya bilavasitə genofondu məhv etməklə bəşəriyyətin gələcəyi üçün ciddi təhlükə yaradır. Onun fəsadlarının təsiri illərlə davam edir. Buna görə də dünya ölkələri, aidiyyəti qurumlar və mütərəqqi ictimaiyyət narkotiklərlə mübarizəyə daha ciddi diqqət yetirməlidir.

Tədbirin ABŞ-ın Ədliyyə Departamentinin Narkotiklərlə Mübarizə Administrasiyasının təklifinin Azərbaycan dövləti tərəfindən dəstəklənməsi sayəsində təşkil olunduğunu vurğulayan Baş nazirin müavini Prezident İlham Əliyevin konfransa böyük əhəmiyyət verdiyini vurğulayaraq dedi: "Bu mühüm tədbirin təşkilində hər iki tərəfin rolu böyükdür. Hər iki tərəf çox yüksək hörmətə və nüfuza malikdir. Prezident İlham Əliyev bu tədbirin Bakıda keçirilməsinə dərhal razılıq verdi. Bu tədbirə böyük önəm verən Azərbaycan dövlətinin başçısı konfransın yüksək səviyyədə keçirilməsi üçün aidiyyəti qurumlara tapşırıqlarını verdi, Təşkilat Komitəsinin yaradılması ilə bağlı Sərəncam imzaladı. Konfransda Azərbaycan aidiyyəti dövlət qurumları ən yüksək səviyyədə təmsil olundu. Bu, ölkəmizin narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizəyə verdiyi böyük önəmin göstəricisidir".

Narkomanlığın, eləcə də narkotik vasitələrin qanunsuz dövriyyəsinin hər il minlərlə insanın həyatını itirməsi ilə nəticələndiyini vurğulayan Baş nazirin müavini bildirdi ki, qətiyyətli mübarizənin aparılması üçün konvensiyalar və mübarizə üsulları dövrün tələblərinə uyğunlaşdırılmalı, bu sahədə çalışan şəxslərin təhlükəsizliyi təmin olunmalıdır. Narkotiklərlə mübarizədə heç bir ölkə təkbaşına uğur qazana bilməz. Bu, dünya birliyinin əsas vəzifəsidir. Ona görə də bu sahədə beynəlxalq əməkdaşlıq daha da gücləndirilməlidir.

Sonra tədbirin təşkilində iştirak edən könüllülərə bütün iştirakçılar adından minnətdarlıq ifadə olundu.

Daha sonra bu sahədə uğurlu fəaliyyətinə və konfransın yüksək səviyyədə təşkilində bilavasitə iştirakına görə Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyevə DEA-nın adından təşəkkür plaketi təqdim olundu.

Beləliklə, Bakıda yüksək səviyyədə təşkil edilən Narkotiklərlə Mübarizə üzrə XXXVI Beynəlxalq Konfrans işini başa çatdırdı.

Xatırladaq ki, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin fəal iştirakı ilə təşkil edilən, "Qlobal tərəfdaşlıqların səfərbər edilməsi" mövzusuna həsr olunan üçgünlük Bakı konfransının məqsədi narkotiklərin qanunsuz dövriyyəsinə qarşı qlobal mübarizəyə cəlb olunmuş yüksək vəzifəli rəsmiləri bir araya gətirmək, bu bəşəri problemin həlli yollarını müzakirə etmək, fikir və qabaqcıl təcrübə mübadiləsi aparmaq idi.

Dünyanın 115 ölkəsindən 432 nümayəndənin qatıldığı beynəlxalq konfrans narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı mövcud olan müasir mübarizə üsullarından mütəxəssislərin bəhrələnməsi üçün əlverişli şərait yaradıb.

Beynəlxalq konfransın ölkəmizdə keçirilməsi barədə ABŞ Ədliyyə Departamentinin Narkotiklərlə Mübarizə Administrasiyasının təklifi olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2018-ci il 15 noyabr tarixli Sərəncamı ilə Narkotiklərlə Mübarizə üzrə XXXVI Beynəlxalq Konfransın 2019-cu ildə Bakı şəhərində keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsi yaradılıb. Tədbirlə bağlı bəzi təşkilati məsələlər barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 10 dekabr tarixli Sərəncamına əsasən işçi qrupu yaradılıb və konfransın Tədbirlər Planı təsdiq edilib.

Bəşəriyyəti ciddi narahat edən, yeni təhlükələrə və bəlalara yol açan narkotiklərə tələbatın azaldılması yollarının tapılması baxımından nadir platforma olan beynəlxalq konfransın əsası 1983-cü ildə qoyulub. Sonradan o, 130-dan çox ölkədən olan nümayəndələrin iştirakı ilə keçirilən ümumdünya forumuna çevrilib.

Üçgünlük Bakı konfransında narkotiklərlə mübarizə üzrə müzakirələr aparılıb, Azərbaycan paytaxtından dünyaya yeni mesajlar verilib.

AZƏRTAC

# Prezident Kitabxanasının "Bakı" elektron resursu istifadəçilərə təqdim edilib

**Bakı müstəqil Azərbaycan Respublikasının paytaxtı, böyük elmi-mədəni və sənaye mərkəzidir. Bakı tarixinə, ərazinin böyüklüyünə və əhalisinin sayına görə Şərqin qədim və ən böyük şəhərlərindən biridir. Harada doğulmasından, harada yaşamasından asılı olmayaraq hər bir azərbaycanlı Bakını özünün doğma şəhəri hesab edir.**

Şəhərin Abşeron yarımadasında coğrafi-strateji mövqedə yerləşməsi və zəngin karbohidrogen ehtiyatlarına malik olması onun keçmişlə müasirliyin vəhdətində meqapolis kimi formalaşmasına səbəb olub.

Bakı hələ şəhər infrastrukturunun formalaşmasından öncə də regionda marağı olan dövlətlərin, səyyahların və missionerlərin diqqətini cəlb edib. Bakı qədim dövrdən yaşayış məntəqəsi kimi məşhurlaşıb, orta əsrlərdən etibarən şərq-qərb, şimal-cənub nəqliyyat dəhlizinə çevrilib, tranzit liman şəhəri kimi formalaşıb. Müxtəlif dövrlərdə Şirvanşahlar dövlətinin, Bakı xanlığının, Bakı quberniyasının, Azərbaycan Xalq Cümhuriyyətinin və Azərbaycan Sovet Sosialist Respublikasının paytaxtı olub.

Dünyanın paytaxt şəhərləri arasında özünəməxsus yeri olan və multikultural dəyərlərin qorunub saxlanıldığı Bakı şəhəri müstəqil Azərbaycan dövlətinin paytaxtı kimi sürətlə inkişaf edib, müasir memarlıq abidələri ilə daha da zənginləşib. Paytaxt Bakı bu gün müxtəlif ölkələrdən gələn turistlərin və iş adamlarının daha çox bəyəndikləri bir məkana çevrilib. Bakıda bir çox dövlətlərin diplomatik korpusları, beynəlxalq təşkilatların və xarici şirkətlərin nümayəndəlikləri yerləşir. İstər Azərbaycan vətəndaşları, istərsə də xaricdən ölkəmizə gələn qonaqlar Bakı haqqında daha ətraflı məlumat əldə etmək istəyirlər.

İstifadəçilərin bu informasiya tələbatını nəzərə alaraq, Bakı şəhərinin tarixi keçmişi, müasir vəziyyəti haqqında onlara dolğun, sistemli və dəqiq məlumatın çatdırılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasının əməkdaşları Azərbaycan, ingilis və rus dillərində "Bakı" elektron resursunu işləyib hazırlayıblar.

Prezident Kitabxanasından AZƏRTAC-a bildirilib ki, bu kitabxananın fondlarına daxil olan materiallardan istifadə edilməklə hazırlanan resursun kontenti 10 fəsildən, 40 bölmədən ibarətdir.

2019-cu il aprelin 17-də kitabxananın saytında yerləşdirilən elektron resursun 14 bölmədən ibarət birinci fəsli "Tarix" adlanır. Bu fəsildə Bakı tarixinin ən qədim dövrdən günümüzə qədər bütün mərhələləri xronoloji ardıcıllıqla ayrı-ayrı mətnlərdə istifadəçilərin nəzərinə çatdırılır. Həmin fəslin "Səyyahlar Bakı haqqında" bölməsində müxtəlif vaxtlarda Abşeron yarımadasında və Bakıda olmuş səyyahların şəhər haqqında təəssüratları öz əksini tapır.

Resursun ikinci fəsli "Paytaxt" adlanır və 8 bölmədən ibarətdir. Həmin bölmələrdə Bakı şəhərinin inzibati-ərazi bölgüsü, əhalisi haqqında dolğun məlumat verilib, şəhərin iqtisadiyyatı, təhsil,



mədəniyyət, turizm və idman sahələri ayrı-ayrılıqda təhlil edilib. Bu fəsildə, həmçinin Bakı şəhərinin rəmzləri və atributları haqqında materiallar tarixi ardıcıllıqla işıqlandırılıb.

"Bakı" elektron resursunun "Memarlıq" adlanan fəsli 5 bölmədən ibarətdir. Bu fəsildə Bakının qədim dövrlərdən başlamış müstəqillik dövrü də əhatə olunmaqla şəhər memarlığının inkişaf mərhələləri xronoloji ardıcıllıqla əks etdirilib. Bakının ən qədim hissəsi olan İçərişəhər və onun dünya və ölkə əhəmiyyətli tarixi-memarlıq abidələri haqqında bu fəsildə əyani təsvirlərlə ayrı-ayrılıqda məlumat verilib. XIX əsrin sonu, XX əsrin əvvəllərində Bakının bir sənaye şəhəri kimi formalaşdığı dövrün memarlığına ayrıca bölmə həsr edilib. Sovetlər dövründə Bakı şəhərinin görkəmi bir sıra nadir memarlıq inciləri ilə daha da zənginləşib. Bakı memarlığının həmin dövrü də ayrıca bölmədə işıqlandırılıb. Bu fəslin "Müstəqillik dövrü" adlanan növbəti bölməsində müasir və eyni zamanda, özündə milli xüsusiyyətləri birləşdirən yeni yaşayış komplekslərinin salınması, parkların, inzibati və ictimai binaların inşa edilməsi, yeni-yeni memarlıq abidələrinin ucaldılması haqqında ətraflı məlumat verilib. Həmin fəslin sonuncu bölməsi "Köhnə və yeni adlar" adlanır. Bu bölmədə köhnə Bakı küçələrinin və meydanlarının müasir adlarla qarşılığını özündə əks etdirən siyahı oxuculara təqdim edilir.

Resursun növbəti fəsli "Sənədlər" adlanır. Bu fəsildə Bakının tarixinə dair sənədlər "Orta əsrlər", " Rusiya imperiyası dövrü", "Xalq Cümhuriyyəti dövrü", "Sovetlər dövrü" və "Müstəqillik dövrü" adlanan bölmələrdə toplanıb.

"Xronologiya" adlanan fəsildə qədim dövrdən bu günümüzə qədər Bakının tarixində baş vermiş mühüm hadisələrin qısa xronologiyası öz əksini tapıb.

Resursun növbəti fəsli "Görkəmli şəxslər" adlanır. Bu fəsildə Bakıda doğulan, ölkə və dünya miqyasında dövlətçilik, elm və texnika, mədəniyyət, incəsənət, idman və digər sahələrdə xüsusi xidmətləri olan şəxslər haqqında qısa bioqrafik məlumatlar əlifba sırası ilə verilib.

"E-Resurslar" fəslinin "E-kitablar" bölməsində Bakı şəhərinin tarixinə, iqtisadiyyatına, mədəniyyətinə, memarlığına, görkəmli bakılılara aid kitabxananın fonduna daxil olan müxtəlif dillərdə 120-yə yaxın kitabın elektron versiyaları toplanıb. Həmin kitabların bir qismi kitabxananın Nadir ədəbiyyat fondunda saxlanılır və XX əsrin əvvəllərində nəşr edilib. "E-məqalələr" bölməsində isə Azərbaycan, rus və ingilis dillərində Bakı şəhərinə aid 166 məqalənin elektron versiyası istifadəçilərə təqdim edilir.

Resursun "Biblioqrafiya" fəslində Prezident Kitabxanasının fondlarına daxil olan Bakı şəhərinə aid müxtəlif dillərdə 530 kitabın biblioqrafik təsvirləri toplanıb.

"Bakı" elektron resursunun maraqlı fəsillərindən biri də "Fotoqalereya" adlanır. Bu fəsildə 100-dən çox nadir şəkil "Köhnə Bakı" və "Müasir Bakı" başlıqları altında istifadəçilərə təqdim edilir.

"Videoqalereya" adlanan sonuncu fəsildə köhnə və müasir Bakıya həsr olunmuş sənədli filmlər toplanıb.

http://bakucity.preslib.az ünvanında təqdim edilən elektron resursun materialları müntəzəm olaraq yenilənir.

AZƏRTAC

# "Şahdağ. Dağların şahı" sənədli filminin təqdimatı olub

**Aprelin 17-də Bakı Konqres Mərkəzində IDEA İctimai Birliyinin milli parklar haqqında sənədli filmlər silsiləsindən ibarət xüsusi layihəsi çərçivəsində çəkilmiş "Şahdağ. Dağların şahı" sənədli filminin təqdimat mərasimi keçirilib.**

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva tədbirdə iştirak edib.

Ekran əsərinin təqdimatından əvvəl qonaqlar "Şahdağ. Dağların şahı" filminin rejissoru İqor Bışnyovun çəkilişlər zamanı lentə aldığı fotolardan ibarət sərgi ilə tanış olublar.








Sonra yeni yaradılmış Qızılağac Milli Parkından bəhs edən və hazırda çəkilişləri davam edən yeni filmdən kadrlar göstərilib.

Mərasimdə çıxış edən İqor Bışnyov "Şahdağ. Dağların şahı" layihəsinin təşəbbüskarı Leyla Əliyevaya təşəkkürünü bildirib, filmin altı il müddətdə davam edən çəkiliş prosesi ilə bağlı təəssüratlarını bölüşüb.

İqor Bışnyov Azərbaycanda ekoturizmin inkişafı üçün əlverişli imkanların olduğunu vurğulayıb.

Filmdə Cənubi Qafqazın ən böyük milli parkı olan Şahdağ Milli Parkının yaradılmasının məqsədi, burada məskunlaşan və 108-i Azərbaycan Respublikasının "Qırmızı Kitab"ına daxil edilmiş fauna növləri, endemik və nəsli kəsilməkdə olan digər növlər və transsərhəd köçəri heyvanlar, ərazi üçün xarakterik olan müxtəlif flora növləri, böyük və əzəmətli qalaya bənzərliyi ilə insanı heyrətə gətirən Şahdağın landşaftı, ərazidə mövcud olan qlobal əhəmiyyətli dağ meşələri haqqında bəhs edilir.

IDEA-nın sözügedən layihəsi çərçivəsində 2014-cü ildə "Şirvan Milli Parkı", 2015-ci ildə "Quşlar cənnəti - Ağgöl Milli Parkı" və "Göygöl Milli Parkı", 2017-ci ildə "Azərbaycan. Ceyranların xilası", ötən il isə "Abşeron Milli Parkı" sənədli filmləri geniş ictimaiyyətə təqdim olunub. Layihə çərçivəsində ölkəmizin bütün milli parkları haqqında sənədli filmin hazırlanması nəzərdə tutulur.

IDEA İctimai Birliyinin təşəbbüsü ilə "Şahdağ. Dağların şahı" filmi ölkəmizin ali təhsil müəssisələrində, həmçinin İctimai Birliyin Bakı və Gəncə şəhərlərindəki Resurs mərkəzlərində nümayiş etdiriləcək. Bununla yanaşı, "Şahdağ. Dağların şahı" filminin digər ölkələrdə və müxtəlif beynəlxalq tədbirlər çərçivəsində də nümayişi nəzərdə tutulur.

IDEA-nın milli parklarla bağlı sənədli filmlər silsiləsi yaratmağında əsas məqsədi Azərbaycanın əsrarəngiz təbiət gözəlliklərini ölkə daxilində və xaricdə təbliğ etmək, eləcə də ətraf mühitin mühafizəsinin vacibliyini diqqətə çatdırmaqdır.

**AZƏRTAC**






# SOCAR AQŞ "ÜMİD" YATAĞINDA UNİKAL QAZMA VƏ GEOFİZİKİ TƏDQİQAT İŞLƏRİ APARIB

Müəssisə "Ümid" yatağının 1 saylı dəniz stasionar özülündən faktiki dərinliyi 6810 m olan 16 saylı kəşfiyyat quyusunda qazma işlərini təhlükəsiz, uğurla və keyfiyyətlə başa vurub.

SOCAR AQŞ "Ümid" yatağının 1 saylı dəniz stasionar özülündən faktiki dərinliyi 6810 m olan 16 saylı quyunun tikintisi işlərini təhlükəsiz və ətraf mühitə heç bir ziyan vurmadan uğurla yekunlaşdırdı. Quyu bütövlüyü nəzərə alınmaqla 16 nömrəli quyu Xəzərin Azərbaycan sektorunda qazılmış ən keyfiyyətli quyulardan biridir. Kəmərlərin layihə dərinliyinə çatdırılması, kəmərlər arxası təzyiqin olmaması və sementləmə işlərinin mükəmməl aparılması deməyə əsas verir ki, 16 saylı quyu "Ümid" yatağının tarixində yeni səhifə açıb.

SOCAR tarixində ilk dəfə olaraq, quyu tikintisi zamanı qazma texnologiyalarında müəyyən dəyişiklik edilmiş, quyuağzı avadanlıqların yığılmaslnda yeni metodlar tətbiq edilmiş və yüksək hasilatın əldə olunması üçün 5 1/2 düymə monobar lift boruları vasitəsilə tamamlanma işləri aparılrmışdır. Müəssisənin əldə etdiyi uğurlardan biri də "Ümid" yatağı üzrə məhsuldar horizonrtlarda lay təzyiqlərinin ölçülməsi və süxur nümunələrinin götürülməsi olmuşdu.

"Ümid" yatağı tarixində, ilk dəfə olaraq, SOCAR AQS yataq üzrə V horizontdan beynəlxalq



standartlara cavab verən avadanlıqla 6046.5-6063.5 m və 6037-6046 m intervalından 100% süxur nümunələri götürmüş, hemetik şəkildə qablaşdıraraq sifarişçiyə təhvil vermişdir.

Müəssisənin Geologiya şöbəsinin müdiri Sevinc Qasımova bildirib: "16 saylı kəşfiyyat quyusu "Ümid" yatağın tam potensialının aşkara çıxarılmasında müstəsna rol oynayib. Əminliklə deyə bilərəm ki, 16 saylı quyunun keyfiyyətlə təhvil verilməsi və sifarişçi məmnunluğunun tam yerinə yetiliməsi "Ümid" yatağında yeni bir dövrün başlanmasına təkan verir. Belə ki, əlavə özüllərin tikilməsi, quyuların qazılması, işlənməsi və işlənmə rejimlərinin seçilməsi, o cümlədən qaz-kondensat hasilatının mənimsənilməsi əhəmiyyətli dərəcədə artacaqdır. Qeyd etdiklərimiz inteqrə edilmiş qazma və quyu xidmətləri göstərən müasir müəssisə olaraq, SOCAR AQŞ-nin inkişaf perspektivlərinin reallığını göstərir.

SOCAR AQŞ kollektivi, Prezident cənab İlham Əliyevin müəyyən etdiyi siyasət və strategiyanın həyata keçirilməsində və SOCAR rəhbərliyinin qarşıya qoyduğu konkret vəzifələrin icrasındakı öz töhfəsi ilə qürur duyur və bu şərəfli fəaliyyətini bundan sonra da davam etdirmək əzmindədir!"

Xatırladaq ki, 2017-ci ilin dekabrında SOCAR AQŞ "Ümid-1" saylı dəniz stasionar özüldən faktiki dərinliyi 6352 m olan 14 nömrəli istismar quyusunu sifarişçi tərəfindən təyin olunmuş texnoloji parametrlər üzrə tam dəqiqliklə qazaraq uğurla təhvil vermişdir.

**M.MİRZƏ,**
**"Respublika".**

# Əmlak Məsələləri Dövlət Komitəsində geniş müşavirə

Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən 2019-ci ilin yanvar-mart ayları ərzində görülmüş işlər və qarşıda duran vəzifələrə dair geniş müşavirə keçirilib. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə aparılan genişmiqyaslı islahatlardan danışan komitə sədri Kərəm Həsənov qeyd edib ki, həyata keçirilən uğurlu islahatlar nəticəsində idarəetmə müasir dövrün tələblərinə uyğunlaşdırılır, xidmətlərin elektron müstəvidə vətəndaşlara çatdırılması prosesi sürətləndirilir, o cümlədən elmi-texniki tərəqqinin nailiyyətlərinin tətbiqi genişləndirilir, qanunvericilik bazası təkmilləşdirilir.



Ölkə rəhbərinin müəyyən etdiyi iqtisadi strategiya və tapşırıqlara uyğun olaraq 2019-ci ilin ilk 3 ayında Əmlak Məsələləri Dövlət Komitəsi də əmlak idarəçiliyi sahəsində görülən işlər və yeni layihələrlə ölkədə aparılan islahatlara öz töhfəsini vermişdir. Bu sahədə ən mühüm hadisələrdən biri 2019-cu ilin ilk günlərində ölkə başçısı cənab İlham Əliyevin iştirakı ilə Əmlak Xidmətləri Məkanının açılışının olmasıdır. Elektron idarəetmə sisteminin tətbiq edildiyi Məkanda xidmətlər daha dəqiq, prosedurlar daha sürətlə yerinə yetirilir. Vətəndaşların müraciət imkanları daha da yaxşılaşıb, şəffaflıq, eləcə də vaxta qənaət prinsipi təmin edilib. Qısa müddət keçməsinə baxmayaraq, Məkana 50 minə yaxın vətəndaş müraciəti daxil olub.

Növbəti yenilik kağız çıxarış dövrünün geridə qalması oldu. Belə ki, cənab Prezidentin 29 mart 2019-cu ildə "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda etdiyi dəyişikliyə əsasən əmlaklara dair çıxarışlar tam olaraq elektron müstəviyə keçəcək. Belə ki, əmlak sahibi müvafiq idarəyə gəlmədən, "Elektron hökumət" portalında yaradılacaq şəxsi kabinetindən elektron formada çıxarışını ala biləcək. Elektron çıxarışların tətbiqi ilk növbədə daşınmaz əmlakın qeydiyyatı prosesində vətəndaş-məmur ünsiyyətini minimuma endirir, əmlakların qeydiyyatını daha da sadələşdirir.

Eyni zamanda, dövlət rəhbərinin imzaladığı "Bəzi çoxmənzilli binaların istismarına icazə verilməsinin sadələşdirilməsi haqqında" Fərmanı da vətəndaş məmnunluğuna, sadə formada mülkiyyətin qeydiyyata alınması, ölkədə leqal əmlakların sayının artması istiqamətində bir yenilik oldu. Hazırda fərmanın icrası ilə bağlı işlər aparılır.

Bu dövrdə əmlak idarəçiliyi sahəsində atılan ən böyük islahat xarakterli addımlardan biri də ölkə başçısının 2019-cu il martın 5-də imzaladığı "Özəlləşdiriləcək dövlət əmlakının (müəssisələrinin) 2019-cu il 1 mart tarixinə mövcud olan əmlak və torpaq vergiləri üzrə borclarının tənzimlənməsi haqqında" qanundur. Qanun özəlləşdiriləcək dövlət müəssisələrinin sağlamlaşdırılması və onların borclarının tənzimlənməsi məqsədi daşıyır. Bu qanun nəticəsində 140-dan çox özəlləşdiriləcək dövlət əmlakının (müəssisələrinin) 2019-cu il 1 mart tarixinə mövcud olan əmlak və torpaq vergiləri üzrə borcları silinəcək. Bu da təqribi hesablamalara görə 12 milyon manatdan artıq vəsait edir.

Komitə dövlət əmlakının idarə edilməsi və səmərəli istifadəsi sahəsində zəruri tədbirlər yerinə yetirib. Dövlət əmlakının qorunub saxlanılması və ondan istifadə vəziyyəti haqqında illik xüsusi hesabat elektron xidmətlər portalı vasitəsilə onlayn rejimdə qəbul edilməkdədir. Artıq 5 minə yaxın dövlət müəssisə və təşkilatından illik xüsusi hesabatlar elektron qaydada yığılıb.

Dövlət əmlakının özəlləşdirilməsinin tam olaraq elektronlaşması istiqamətində işlər daha da genişləndirilir. Cari ilin ilk üç ayında dövlət əmlakının özəlləşdirilməsi ilə bağlı Bakı şəhəri və respublikanın digər şəhər və rayonları üzrə ümumilikdə 42 hərrac keçirilib. Bu dövrdə 260-a yaxın dövlət əmlakı, o cümlədən torpaq sahələri və nəqliyyat vasitələri özəlləşdirilib. Hesabat dövründə 4 müəssisənin səhmlərinin satışı üzrə investisiya müsabiqəsi elan olunub, 35 milyon manat investisiya qoyuluşu, eləcə də azı 600 yeni iş yerinin yaradılmasına dair tələblər irəli sürülmüşdür. Dövlət əmlakının özəlləşmə prosesinin sürətləndirilməsinə və şəffaflığın təmin edilməsinə xidmət edən "Özəlləşdirmə portalı"na 3 ay ərzində 200 mindən çox baxış olub. Ümumilikdə fəaliyyətə başladığı dövrdən portala baxış sayı 2,3 milyonu ötmüşdür.

Azərbaycan Respublikası Prezidentinin müvafiq Fərmanı ilə Torpaqların Elektron Kadastr Uçotu Sisteminin yaradılması işi uğurla icra olunur. Hesabat dövründə 5 rayonda torpaqların elektron kadastr uçotuna alınması işləri yekunlaşıb. Ümumilikdə isə 35 rayonda uçot işləri başa çatıb. Bu rayonlardan 26-da layihənin nəticələrinin təqdimatı keçirilib, 14 rayonunun məlumatları sistemə tam miqrasiya edilib.

Yeni yaradılmış Ünvan Reyestri İnformasiya Sisteminin 1-ci mərhələsi respublikanın şəhər və rayon mərkəzlərini özündə əks etdirməklə artıq başa çatdırılıb və aralıq bazası da olmaqla 17683 küçə və prospekti, 1 276 076 ədəd giriş ünvanını əhatə edir. Hazırda ÜRİS-nin 2-ci mərhələsi olan kənd yaşayış məntəqələrinə ünvanların verilməsi və sistemə işlənməsi işləri görülür. Ölkədə beynəlxalq qaydalara uyğun qurulmuş ünvan sahəsində də yenilik olan "Ünvan portalı" cari ildə də vətəndaşların xidmətindədir.

Torpaq idarəçiliyində effektiv dövlət nəzarətinin həyata keçirilməsi üçün Peyk Nəzarət Sistemi qurulur. Bu sistem vasitəsilə əldə ediləcək peyk məlumatları torpaqların təyinatından kənar və ya qeyri-səmərəli istifadə hallarını vaxtında aşkar edib, müvafiq tədbirlər görməyə imkan verəcəkdir. Hesabat dövründə İnzibati Xətalar Məcəlləsinin tələblərinə əsasən 504 hal üzrə inzibati protokollar tərtib edilib.

Daşınmaz əmlakın qeydiyyatının sadələşdirilməsi, xidmətlərdə sosial və innovativ amillərin gücləndirilməsi, rahatlıq və vətəndaş məmnunluğunun yüksəldilməsi istiqamətində tədbirlər davam etdirilir. Çıxarışların 1 iş günü müddətində verilməsi vətəndaşların əmlaklarını qeydiyyata almaq marağını artırır. 2019-cu ilin ilk rübündə ölkə üzrə 51 minə yaxın daşınmaz əmlak obyekti üzərində mülkiyyət hüquqları qeydiyyata alınıb.

Müşavirənin sonunda komitə sədri Kərəm Həsənov qarşıdakı fəaliyyətlə bağlı tapşırıqlarını səsləndirib. Qeyd edib ki, şəffaflığın artırılması, vətəndaş məmnunluğunun təmin edilməsi istiqamətində operativ fəaliyyət göstərilməlidir. Komitə sədri Milli Məkan Məlumatlarının formalaşdırılması ilə bağlı görülən işlərin sürətlənməsi tapşırığını verib. Vurğulayıb ki, müxtəlif profilli yerli və xarici investorların özəlləşdirmə prosesinə cəlb edilməsi məqsədilə özəlləşdirmədə yeni yanaşmaların tətbiqi genişləndirilməlidir.

**ƏMDK-nin mətbuat xidməti.**

# Rusiyalılar nədən Bakı "Jara"sına gedirlər?

**Moskvada "Jara MusicAwards" mükafatının təqdimat mərasiminin keçirilməsi ilə əlaqədar Dövlət Dumasının deputatı Dmitri Savelyevin rəhbərlik etdiyi Rusiya-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun jurnalistləri sorğu keçiriblər: festivalda rusiyalıları cəlb edən nədir və onlar bu il Bakıya getməyi planlaşdırırlarmı?**

AZƏRTAC Parlamentlərarası Dostluq Qrupunun mətbuat xidmətinə istinadla xəbər verir ki, "Jara" festivalının hələ çox da böyük olmayan, lakin artıq şöhrət qazanmış tarixçəsi var. İldə cəmi üç dəfə keçirilən festival bu gün postsovet məkanında pop-musiqi üzrə ən böyük tədbirlərdən birinə çevrilib. Rusiya-Azərbaycan Parlamentlərarası Dostluq Qrupu rusiyalılar arasında daha bir sorğu keçirib və müəyyən edib ki, birincisi, Bakıya yollanan turistlərin əksəriyyəti üçün "Jara" əsl cəlbedici amil olub. İkincisi, ötən il sorğuda iştirak edənlər də daxil olmaqla, onların bir çoxu yenidən "Jara"ya getməyə hazırlaşırlar.

Sankt-Peterburqlu tələbə Tatyana deyib: "Sadəcə dostlarımızla birlikdə olmaq çox xoşumuza gəldi. Bilirsinizmi, Piterdə hər şey yaxşıdır, amma günəşi az görürük. İndi bahardır, biz artıq ona ehtiyac duyuruq. Bu səbəbdən sessiyalara hazırlaşırıq və hər gün təsəlli tapırıq ki, planlaşdırdığımız kimi, iyulda bizi "Jara" gözləyir. Dəniz, günəş, gözəl şəhər, rəqslər - bir sözlə, biz bu il hər şeyin ötənilkindən pis olmayacağına inanırıq". Bəziləri konkret ifaçıdan - Qlükoza, Dima Bilan, Ani Lorak və bir qayda olaraq çoxdandır konsertlər verməyən Zemfiranı görmək üçün gedirlər. Yeri gəlmişkən, Emin Ağalarov sonuncu müğənni ilə danışıqlar aparıb ki, o, "Jara" üçün istisna edərək səhnəyə çıxsın.

Daha bir tələbə - həştərxanlı Matvey jurnalistlərə deyib: "Əgər Zemfira çıxış edərsə, biz bu il mütləq oraya gedəcəyik. Bakı bizə yaxındır, qız rəfiqəmlə bir neçə dəfə orada olmuşuq. O, Zemfiranın konsertində olub, mahnıları xoşuma gəlsə də, bu mənə qismət olmayıb. Əgər şans olarsa, nədən ondan istifadə etməyim. Həm də bizim hər ikimiz Azərbaycanı çox sevirik, bütövlükdə bu ölkəni görmək istəyirik. Yəni, bütün bunları bir araya gətirmək və zövq almaq üçün əla səbəb olacaq".

Konsertlə səyahəti bir araya gətirmək məsələsinə gəldikdə, cavab çox nümunəvidir. Ümumilikdə sorğular, o cümlədən sosial şəbəkələrdə yer alan rəylər göstərir ki, ötən il olduğu kimi rusiyalılar təkcə "Jara" üçün gəlmirlər. Təbiətin gözəlliyi və tarixi abidələr, arxitektura və milli mətbəx insanlar üçün pop-musiqi ulduzlarının konsertləri qədər maraqlıdır.

Dostluq Qrupu mətbuat xidmətinin rəhbəri Nataliya Krasovskayanın sözlərinə görə, indi rusiyalıların Azərbaycan haqqında beş il bundan əvvəl olduğundan daha çox məlumatı var. Bütün bunlar iri idman və mədəniyyət tədbirlərinin, o cümlədən "Jara"nın sayəsindədir. O əlavə edib: "Bu cür tədbirlərin təşkilatçıları həqiqətən də çox mühüm missiyanı həyata keçirirlər - Rusiya və Azərbaycan sakinlərinə təkcə vaxtlarını əla keçirməyə deyil, həm də tanış olmağa, bir-birini daha yaxından tanımağa imkan yaradırlar".

Rusiya-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun rəhbəri Dmitri Savelyev deyib: "Həmvətənlərimizin cavablarından belə nəticə çıxır ki, bizim sorğularımız nəticəsində artıq "Jara"nı unikal festival adlandırmaq olar. Burada iştirak edən ulduzların və hər il artan iştirakçıların sayına, ən başlıcası isə unikal ab-havasına görə bunu söyləmək mümkündür. Mən çox ümidvaram ki, bu tempə nail olmuş "Jara" onu azaltmayacaq və festival böyüyəcək, daha çox insanı cəlb edəcək, ölkələrimiz arasında dostluğun möhkəmlənməsinə kömək edəcək, turist mübadiləsini artıracaq".

**AZƏRTAC**

# "Veb dizayn" sosial layihəsi uğurla yekunlaşıb

"Veysəloğlu" şirkətlər qrupunun təşəbbüsü və təşkilatçılığı, İnformasiya-Kommunikasiya Texnologiyalarının Tətbiqi və Tədrisi Mərkəzi, həmçinin "Peşəyönümlü təhsilin inkişafına yardım" İctimai Birliyinin tərəfdaşlığı ilə keçirilən sosial layihə başa çatıb. **Şirkətin ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri İlham Məmmədovun** verdiyi məlumata görə 3 ay davam edən layihədə iştirakçılara "Veb dizayn" (saytın layihələnməsi, yaradılması və idarəedilməsi) dərsləri ödənişsiz olaraq peşəkar səviyyədə tədris olunub. "Veb dizayn" layihəsində fərqlənən tələbələrə Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin və "Veysəloğlu" şirkətlər qrupunun sertifikatları təqdim olunub.

Xatırladaq ki, "Veb dizayn" sosial layihəsində Şəhid ailələri, Qarabağ müharibəsində və Aprel döyüşlərində vəfat etmiş, həmçinin əlillik dərəcəsi alan şəxslərin övladları, eyni zamanda yaxın qohumları iştirak ediblər.

Qeyd edək ki, "Veysəloğlu" Şirkətlər Qrupunun "Veb dizayn" kimi kursları təşkil etməkdə məqsədi bu sahəyə marağı olan gənclərin bilik və bacarıqlarını artırmaq, peşəkar səviyyəyə çatdırmaq, habelə kursu




bitirərək iş tapmaqlarına yardımçı olmaqdır.

**Bəybala BƏYBALAYEV,**
**"Respublika".**

Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti

AÇIQ TENDER ELAN EDİR

Tender 8 (səkkiz) lot üzrə keçirilir:

1-ci lot - Xidmətin Siyəzən rayon bölməsinin inzibati binasının tikintisi;

2-ci lot - Kişi hərbi qulluqçular üçün qara rəngli yay tuflisinin satınalınması;

3-cü lot - Tünd zeytun rəngli yarıyun qış və yay kitel-şalvar parçasının satınalınması;

4-cü lot - Tünd zeytun rəngli yarıyun demisezon gödəkçə və plaş-palto parçasının satınalınması;

5-ci lot - Hərbi qulluqçular üçün bej rəngli qısaqol və uzunqol köynəklərin satınalınması;

6-cı lot - Əşya-geyim ləvazimatının satınalınması;

7-ci lot - Xüsusi blankların və vəsiqələrin çap olunması;

8-ci lot - Digər alışlar.

Tenderdə iştirak haqqı:

1-ci lot - 2000 manat

2-ci lot - 150 manat

3-cü lot - 350 manat

4-cü lot - 350 manat

5-ci lot - 200 manat

6-cı lot - 100 manat

7-ci lot - 100 manat

8-ci lot - 100 manat

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini imzalanmış, möhürlənmiş, ikiqat zərfdə, yazılı surətdə təqdim etsinlər. Tender təkliflərinin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, malgöndərənin (podratçının) aidiyyəti işlər üzrə ixtisas göstəricilərinin uyğunluğu.

Tender predmeti haqqında ətraflı məlumat tenderin əsas şərtlər toplusunda verilir. Maraqlananlar tenderin əsas şərtlər toplusunu (Azərbaycan dilində hazırlanmış) tenderdə iştirak etmək üçün yazılı müraciət etdikdən sonra aşağıda qeyd olunan hesaba iştirak haqqı ödəməklə Bakı şəhəri, Zərifə Əliyeva küçəsi 30 (əlaqələndirici şəxs: Ceyhun Valehov; telefon: (+99412) 493-82-66) ünvanından ala bilərlər:

Adı: Dövlət Xəzinədarlıq Agentliyi
Kodu: 210005
VÖEN: 1401555071
Müxbir hesabı
AZ41NABZ01360100000000003944
S.W.İ.F.T CTREAZ22
Adı: Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti
VÖEN: 1701344461
Hesab:
AZ91CTRE00000000000004828501
Büdcə gəlirinin təsnifatı kodu: 142340

Büdcə səviyyəsinin kodu fond: 7

Malgödərənlər (podratçılar) iddiaçı statusu almaq və tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri (rəsmi blankda və möhürlə təsdiq olunmuş qaydada) təqdim etməlidirlər:

1. Tenderdə iştirak etmək üçün ərizə;

2. İştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi;

3. Tender təklifi (tender təklifləri zərflərinin açıldığı gündən sonra azı 30 (otuz) bank günü qüvvədə olmalıdır);

4. Tender təklifinin birinci əlavəsi kimi tender təklifinin ümumi qiymətinin 1 (bir) faizi məbləğində tender təklifinin təminatı - bank zəmanəti (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən azı 30 (otuz) bank günü çox, yəni azı 60 (altmış) bank günü olmalıdır);

5. Malgöndərən (podratçı) haqqında tələb olunan sənədlər. Bu sənədlərə aşağıdakılar daxildir:

- Malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;

- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi və sosial müdafiə orqanından arayış;

- Malgöndərənin (podratçının) son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;

- Malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyət dövründəki) maliyyə vəziyyəti haqqında bank arayışı;

- Malgöndərənin (podratçının) ixtisas göstəricilərinə dair məlumat (bu məlumatlar tenderin əsas şərtlər toplusunda tələb olunan sənədlərdə və formalarda təqdim olunmalıdır).

Malgöndərənlər (podratçılar) 1, 2 və 5-ci bəndlərdə qeyd olunan sənədləri 29 may 2019-cu il saat 15:00-a, 3 və 4-cü bəndlərdə göstərilən sənədləri 10 iyun 2019-cu il, saat 17:00-a qədər yuxarıda qeyd olunan ünvana təqdim etməlidirlər.

Göstərilən tarixdən gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Tender təklifi zərfləri 11 iyun 2019-cu il tarixdə saat 11:00-da Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətində açılacaqdır.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Tender Komissiyası.

# Bakı şəhərində bərk məişət tullantılarının yığılması, daşınması və çeşidlənməsinin idarə olunması konsepsiyasının həyata keçirilməsinə başlanılıb

**Xəbər verildiyi kimi, Bakı Şəhər İcra Hakimiyyətinin sifarişinə əsasən Böyük Britaniyanın tanınmış Mott MacDonald şirkəti tərəfindən Bakı şəhərində bərk məişət tullantılarının yığılması, daşınması və çeşidlənməsinin idarə olunması konsepsiyası hazırlanır. Bununla əlaqədar şirkətin nümayəndələri növbəti dəfə paytaxtımıza gəlmişlər. Onların apardıqları araşdırmaların nəticələri konsepsiyanın hazırlanmasında əsas götürülmüşdür.**

Mott MacDonald şirkətinin rəhbərlərinin bildirdiyinə görə, Bakı mürəkkəb landşafta, küləkli hava şəraitinə və böyük əraziyə malik olmasına baxmayaraq şəhərin sanitar təmizliyi normal səviyyədədir. Buna baxmayaraq, Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən Bakı şəhərində bərk məişət tullantılarının yığılması, daşınması və çeşidlənməsinin idarə olunması ilə bağlı islahatların aparılması üçün bu sahədə böyük təcrübəsi olan Böyük Britaniya Mott MacDonald şirkətinə müraciət olunmuş və onun mütəxəssisləri yeni islahatlar konsepsiyasının hazırlanmasına başlamışlar. Əsas məqsəd paytaxt Bakı şəhərində bərk məişət tullantılarının yığılması, daşınması və çeşidlənməsinin idarə olunması işlərini aparıcı Avropa dövlətlərinin paytaxtları və iri şəhərləri səviyyəsinə çatdırmaq, paytaxtımızı gözəl məkana çevirməkdir.

Konsepsiya çərçivəsində artıq 3 aya yaxındır ki, Bakı şəhərində işlər gedir, 4 rayonda (Səbail, Nərimanov, Yasamal və Nəsimi) məişət tullantıları üçün yeni müasir konteynerlər qoyulub, dünəndən isə daha 3 rayona (Binəqədi, Nizami və Xətai) bu konteynerlərin verilməsinə başlanılıb.

Həyata keçirilən işlər çərçivəsində Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən həmin şirkətin təqdim etdiyi layihə əsasında Monitorinq Mərkəzi yaradılmışdır. Mərkəzdə işçi qrup tərəfindən konsepsiyanın hazırlanması və həyata keçirilməsi ilə bağlı nəzərdə tutulan işlərin görülməsi üçün ən müasir şərait yaradılıb.

Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən yaradılmış Monitorinq Mərkəzində Böyük Britaniya Mott MacDonald şirkəti rəhbərliyinin səlahiyyətli nümayəndəsi, Bakı şəhərində bərk məişət tullantılarının yığılması, daşınması və çeşidlənməsinin idarə olunması üzrə islahahatlar konsepsiyasının rəhbəri



Martin Saymon ictimaiyyət və mətbuat nümayəndələrinə konsepsiya barədə geniş məlumat vermiş və jurnalistləri maraqlandıran çoxsaylı sualları cavablandırmışdır.

**Martin Saymon** bildirmişdir ki, 2018-ci ildə bizi Bakıda tullantı idarəetməsi xidmətlərinin qiymətləndirilməsi üçün dəvət etmişdilər. Məqsəd tərəfimizdən potensial təkmilləşdirilmə metodları təklif edərək tullantı idarəedilməsi sisteminin yüksək inkişafı üçün lazım olan məlumat bazasını əldə etməyə kömək edəcək pilot araşdırmalar layihəsini hazırlamaq idi. Bu da öz növbəsində genişmiqyaslı tullantıların idarəetməsi sistemində inkişaf əldə etməyə kömək olacaqdı.

Şirkətimiz tullantı və tullantıların yenidən emalını araşdırmaq üçün böyük məmnuniyyətlə Bakı Şəhər İcra Hakimiyyəti ilə 2-ci dəfə əməkdaşlıq etməyə razılıq vermişdir. Bu araşdırmaların nəticələri Bakı şəhərində tətbiq olunaraq XXI əsrin müasir tullantı idarəetməsi sistemini yaradacaqdır.

Bakıda hər il təxminən 1,5 milyon ton tullantı yaranır. Bu rəqəmlər Bakı şəhəri genişlənib inkişaf etdikcə daha da artacaqdır. Tullantıların düzgün yığılması, emalı və çeşidlənməsi vacib şərtdir. Tullantıların çoxu şəhərkənarı poliqonlara aparılır. Buna baxmayaraq, tullantıların Balaxanıda yerləşən tullantı çeşidlənməsi və onlardan enerji əldəetmə zavodlarına göndərilməsi ilə bu işdə inkişaf əldə edilib.

Bizim ilkin araşdırmalarımız onu göstərdi ki, Bakıda tullantı menecmenti sistemini təkmilləşdirmək vacibdir ki, bu böyüyən və inkişaf edən şəhəri müasir ximətlərlə təmin etsin, həm ətraf mühitə, həm də iqtisadi inkişafa müsbət təsir göstərsin. Turizm sahəsində inkişaf edən, müxtəlif beynəlxalq tədbirlər keçirən, Bakı Ağ Şəhər kimi innovativ layihələrə imza atan bir şəhər kimi, Bakıda yüksək səviyyəli tullantı idarəedilməsi sistemi əldə etmək zəruriyyəti yaradır. Bakı Şəhər İcra Hakimiyyəti sakinlər üçün tullantıların yığılması, çeşidlənməsi və idarəedilməsi sisteminin təkmilləşdirilməsində məqsədlidir və bizim Mott MacDonald şirkəti olaraq rolumuz bu hədəfin əldə edilməsində dəstək olmaqdır.

Biz yeni tullantı konteynerləri və nəqliyyat vasitələri daxil olmaqla, yeni tullantı yığılması sistemlərini tətbiq etmək fikrindəyik. Bununla bərabər, Bakı sakinlərinin də tullantıları emal oluna bilən və emal oluna bilməyən tullantılara bölməsinə həvəsləndirməyə çalışırıq. Bu böyük miqdarda tullantıların poliqondan kənarlaşdırılmasına kömək edəcək.

Son bir neçə ay ərzində, nəzərəçarpacaq dərəcədə inkişaf əldə edilib, yeni konteynerlər əldə edilib və sakinlərin bildirdiyinə görə bu əvvəlki konteynerlərə nisbətən böyük müsbət dəyişiklikdir və daha çox yeni konteynerlərin qoyulması işləri görülür.

Yeni pilot araşdırmaların bir hissəsi kimi, tullantı araşdırmaları keçirmək zəruri məsələdir və müsahibə verdiyimiz bu Monitorinq Mərkəzi sırf bu məqsədlə Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən yaradılmışdır. Bu Mərkəz bu günə qədər gördüyüm ən mükəmməl müəssisələrdən biridir və bizə işimizi daha yaxşı yerinə yetirməyə kömək edir, işçi heyəti üçün tam müasir şərait yaradılıb.

İlkin araşdırmalar üçün Nərimanov rayonu seçilib. Belə ki, bu rayon həm şəhərin mərkəzində yerləşir, həm də şəhərkənarı əraziləri də əhatə edir. Buna görə də, Nərimanov rayonu ümumilikdə Bakı şəhərini təmsil edən ərazi kimi sınaqlar üçün münasib rayon kimi seçilib.

Mən hazırladığımız pilot layihələrin uğurla tətbiqinə inanıram, ümid edirəm ki, Bakı sakinləri də şüşə, kağız, karton tullantılarını, plastik və dəmir içki qablarını çeşidləyib emal oluna bilən tullantılar üçün gətirilmiş yeni konteynerlərə ataraq şəhər icra hakimiyyətinə kömək olacaqlar. Biz 20-30 faizlik tullantı diversiyası əldə etməyi hədəf tutmuşuq. Bu layihə uğurla nəticələnəcəyi halda, ətraf mühit üçün böyük müsbət təsirlər, həm də Bakı şəhəri üçün iqtisadi faydalar verəcək, regiondakı digər şəhərlər üçün də gələcəkdə başlanğıc nöqtəsi olacaqdır.

**İsrafil KƏRİMOV,**
**Bakı Şəhər İcra Hakimiyyəti Mətbuat Xidmətinin rəhbəri .**

# “GƏNC MÜƏLLİMLƏR BİRLİYİ” TOPLANTI KEÇİRİB





**Son dövrlərdə Şəmkir Rayon İcra Hakimiyyətinin təşəbbüsü ilə rayonda gənclərlə bağlı bir sıra layihələr uğurla icra olunur.**

Rayon icra hakimiyyətinin təşəbbüsü ilə yaradılan “Gənc Həkimlər Birliyi”nin üzvləri kəndbəkənd gəzərək imkansız insanları müayinə edirlər. “Gənc Müəllimlər Birliyi” isə cavan və istedadlı kadrları bir yerə toplayaraq rayonda təhsili inkişaf etdirmək məqsədi daşıyır. Gənclərlə görülən işlərin bir parçası olan “Gənc Tərbiyəçilər Birliyi” də şəmkirli körpələrin sağlam və düzgün böyüməsi istiqamətində işlər görür. “Gənclərin Mədəni İnkişafı Birliyi” isə rayonda təşkil olunan tədbirlərdə öz fəallıqları ilə seçilirlər. “Gənc Xeyriyyəçilər Birliyi” isə öz nəcib əməlləri ilə tanınır. Bütün bu təşkilatlar “Böyük Yol” Gənclərin İctimai Birliyinin çətiri altında toplanıb fəaliyyət göstərirlər.

Bütün bu tədbirlərin nəticəsidir ki, Şəmkirdə gənclər öz qabiliyyətlərini, bacarıqlarını anında göstərmək imkanı qazanıblar və rayon rəhbərliyi tərəfindən dəstək alırlar.

Bu günlərdə “Gənc Müəllimlər Birliyi”nin yığıncağında təşkilata yeni sədr və 11 nəfər gənc müəllimdən ibarət üzv seçilib. Şəmkir “Gənc Müəllimlər Birliyi”nin yeni sədri Şəmkir Rayon Təhsil Şöbəsinin müdir müavini Hafiz Pənahov seçilib.

Bu münasibətlə Şəmkirdə Heydər Əliyev Mərkəzində keçirilən tədbirdə rayon icra hakimiyyətinin başçısı Alimpaşa Məmmədov da iştirak edib.

Tədbirdə çıxış edən icra başçısı Şəmkirdə fəaliyyət göstərən “Böyük Yol” Gənclərin İctimai Birliyinin tərkib hissəsi olan “Gənc Həkimlər Birliyi”, “Gənc Tərbiyəçilər Birliyi”, “Gənc Müəllimlər Birliyi”, “Gənclərin Mədəni İnkişafı Birliyi” və “Gənc Xeyriyyəçilər Birliyi”nin fəaliyyətlərini yüksək qiymətləndirib.

**Eyvaz HƏMİD,**
**“Respublika”.**

# Tərtərlilər tibbi müayinədən razıdırlar

“Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrasının yekunlarına həsr olunan konfransda Prezident İlham Əliyev əhalinin tibbi müayinədən keçməsinin vacibliyinə toxunaraq deyib: “Bildiyiniz kimi, hər il 5 milyondan çox insan pulsuz tibbi müayinədən keçir. Bu da bizim təşəbbüsümüzdür, çox müsbət təşəbbüsdür. Hazırda bizdə vətəndaşların tibbi müayinədən keçmələri üçün hər bir yerdə müasir avadanlıq quraşdırılmış xəstəxanalar var. Bu da çox ciddi sosial layihədir və Azərbaycan bu sahədə də gözəl nümunə göstərir”.

Dövlətimizin başçısının tapşırıq və tövsiyəsinə uyğun respublikamızın hər yerində olduğu kimi, cəbhə bölgəsində yerləşən Tərtər rayonunda da əhalinin kütləvi tibbi müayinəsi uğurla həyata keçirilir. Əhalinin sağlamlığının qorunmasına yönələn bu tədbirin yüksək mütəşəkkilliklə keçirilməsini təmin etmək üçün rayonda xüsusi komissiya yaradılır, tibb ocaqlarında iş qrafiki tərtib edilib. Tibbi müayinələr rayon mərkəzi xəstəxanası ilə yanaşı, Azad qaraqoyunlu və Bəyimsarov kənd xəstəxanalarında, kəndlərdəki tibb məntəqələrində də aparılır. Bundan başqa, yüksəkixtisaslı mütəxəssislərdən ibarət həkim



briqadaları tərəfindən rayonun kəndlərində də əhalinin tibbi müayinəsi həyata keçirilir. Müayinələrin yüksək səviyyədə aparılması, vətəndaşların rahatlığı üçün xəstəxana zəruri avadanlıqlarla təchiz olunub, lazımi şərait yaradılıb. Sakinlər əsasən terapevt, endokrinoloq, oftalmoloq, nevropatoloq, stomatoloq, kardioloq, ginekoloq tərəfindən müayinə edilir, kardioqram, ultrasəs, rentgen, laborator və sair müayinələrdən keçirilir.

Tibbi müayinədən rayonun 54 yaşayış məntəqəsindən yaşı 18-dən yuxarı olan 59 min 186 nəfərin keçməsi nəzərdə tutulub.

Sakinlərlə söhbət zamanı tibbi müayinəyə böyük əhəmiyyət verdiklərini vurğuladılar. Tərtər şəhər sakini ziyalı, ağsaqqal Qədir Abdullayev söhbət zamanı ölkə Prezidenti İlham Əliyevin bu addımını yüksək qiymətləndirərək tərtərlilər adından dövlət başçısına minnətdarlığını bildirdi. O, nəcib peşə sahiblərinin insanlara yüksək qayğıkeşliklə tibbi xidmət göstərməsindən məmnun qaldığını xüsusilə vurğuladı. Rayon icra hakimiyyətinin başçısı Müstəqim Məmmədov əhalinin tibbi müayinədən keçirilməsi ilə əlaqədar rayon mərkəzi xəstəxanasında olmuş, tibb işçiləri və müayinəyə gələnlərlə görüşmüşdür. Tərtərdə tibbi müayinə mütəşəkkilliklə davam etdirilir.

**Vəli VƏLİYEV,**
**“Respublika”.**

# Bir şəhid ailənin tarixçəsi

**(əvvəli 14, 15 dekabr 2018-ci il tarixli saylarımızda)**

Nəcəfin evlənmək istəyi Gülsüm xanımın ana qəlbində sevinclə kədər qarışıq anlaşılmaz duyğu yaratmışdı. Həyəcanla düşünürdü: 22 yaşlı balamın ağlına bu fikir haradan gəlmişdir? O, hökmən Nəcəflə görüşmək, onu bu yoldan çəkindirmək istəyirdi.

Axşam yorğun, qayğılı halda işdən qayıdan Gülsüm xanım dincini almamış Nərimanın iş kabinetinə keçib kresloda əyləşdi. Nərimanın portretinə baxanda qəhərləndi. Başını stolun üstündə - qolları arasına aldı, sakitləşənə qədər tərpənmədi. Sonra durub mətbəxə keçib əl-üzünü yudu, “özünə gəldi”, yenidən geri qayıtdı: Nərimanla ürəyində dərdləşdi, qəti fikrə gəldi: Yox, Nəriman razı deyil

Ertəsi gün Nəcəfə teleqram vurdu. Axşam qatarı ilə Lvova yola düşdü.

Qərbi Ukraynanın ən böyük elmi, mədəni mərkəzi Lvov tarixən qədim, multikultural irsi olan əzəmətli şəhərdir. Burada polyak, alman, yəhudi, rus, avstriyalı və digər millətlərin nümayəndələri yaşayırdı. Geniş küçələrdə rus arxitekturası və Avstriya moderninin stili möhtəşəm binalar üçün tipik olsa da, amma renessans, barokko və klassisizm dövrləri şəhərin arxitekturasında qədərincə təqdim olunmuşdur. Yaşıllığa bürünmüş xiyabanlar və meydanlar, elm, təhsil müəssisələri, kilsələr, muzeylər, opera və teatr binaları əzəməti ilə göz oxşayırdı. Lvov şəhərinin “Avropa tacının mirvarisi”, “Kiçik Paris”, “Şəhər muzey”, “Ukraynanın mədəni mərkəzi” və s. adlanması təsadüfi deyildi.

Gülsüm xanım Lvova gəldiyi ilk günlərdən şəhərə məftun olmuşdu. Muzey və sərgilərdə ukraynalıların, banderlərin tarixi, həyat tərzi, mübarizəsi və mədəniyyəti ilə tanış olurdu.

İstirahət günləri Nəcəf anasını şəhərin görməli yerlərinə gəzintiyə aparır, məlumatlı bələdçilər kimi bildiklərini danışardı. Onlar hərdən opera tamaşalarına, konsertlərə də gedərdilər. Lvovda günləri xoş keçirdi.

Lvov şəhəri 1939-cu ildə Sovetlər Birliyi və Almaniya arasında razılaşma əsasında Polşadan alınıb Sovet Ukraynası tərkibinə daxil edilmişdi. Avropa ölkələri ilə sərhəd zonasına yaxın yerləşən Lvov şəhəri kənarında sovet hərbi bazası yerləşdirilmişdi. Onun ərazisində tank istehsal edən nəhəng zavodda sutka ərzində növbəli iş rejimi yaradılmışdı. Qvardiya baş texnik leytenantı Nəcəf Nərimanov birinci növbədə - səhərdən axşama öz vzvodu ilə tank motorlarını təmir edirdi. O, son dərəcə təşəbbüskar komandir kimi tanınmışdı. Batalyonda motorların əsaslı təmirinin yüksək keyfiyyətlə vaxtından əvvəl yerinə yetirilməsi onun biliyi, “motorların yonulma və cilalanma üsulu ilə bərpa edilməsinin mürəkkəb növünü təşkil etməsilə” başa gəlirdi. Onun bir neçə səmərələşdirici təklifi bəyənilmişdi.

1941-ci ilin mayından komandir Nəcəf Nərimanovun tank briqadası Lvov hərbi zavodunda səhərdən axşama çalışırdılar. Dairə hərbi komandanlığının əmri ilə təmir işlərini yüksək keyfiyyətlə vaxtından əvvəl yerinə yetirdiyinə görə komandir Nəcəf Nərimanova avqustun birindən ay yarımlıq məzuniyyət və pul mükafatı verilmişdi. Bu xəbər Nəcəfi sevindirdi: anası Gülsüm xanımla Soçi sanatoriyasına müalicəyə, oradan da Moskvaya getməyi düşünürdü.

Ananın sevinci isə yerə-göyə sığmırdı: oğlu Nəcəf Ali Hərbi Akademiyada təhsilini davam etdirəcək. Gülsüm xanım təhsil illəri oğlunun ailə qurmasını məsləhət bilmişdi. Bu, ananın ən böyük arzusu idi.

1941-ci ilin iyun ayının 21-dən 22-nə keçən gecə - saat 4-də, dan yeri sökülməmiş alatoranda Sovetlər Birliyinin qərbində sərhədboyu top, tank, təyyarə, mərmilərin dəhşətli gurultusu sakitliyi parçaladı, tufan qopardı. Bəşəriyyətin dincliyi, sülh, əmin-amanlıq istəyi ərşə çəkildi.

Alman-faşist qoşunları qəflətən SSRİ-yə qarşı total hücuma keçmişdi.

Cəbhəboyu şəhərlər, qəsəbələr, kəndlər dağıldı, od-alov ərşə bülənd oldu.

İlk həyəcan siqnalı Lvovda yayılanda Nəcəf şirin yuxudan dik atıldı. Paltarlarını geyinə-geyinə Gülsüm xanıma deyirdi: “Müharibə... Təcili ştaba... dalımca gəliblər. Anacan, təcili Moskvaya qayıt, narahat olma, özünü qoru, biz qalib gələcəyik, nigaran olma, salamat qal...”.

Gülsüm xanım elə bil ki, onun dediklərini eşitmirdi, həyəcanlı idi. Oğlu Nəcəfi bağrına basıb titrək səslə: “Allah amanatı oğlum, özünü gözlə, məni tək qoyma” - deyə pıçıldadı. İki damcı göz yaşı yanaqlarını islatdı.

Moskvaya çətinliklə qayıdan Gülsüm xanım donuxub qalmışdı, nə edəcəyini bilmirdi. Moskvada da sərtlik və pərişanlıqla qarşılaşdı. Ana aram tapmırdı. Qulağı radionun səsində, gözü mətbuatda idi. Münəccimlər uca göylərdə kəhkəşan aləmində öz ulduzunu axtaran kimi Gülsüm ana bu qarışıq dünyada gözünün ağı-qarası, təkcə balası Nəcəfin sorağında idi.

Elə bil ki, İkinci Dünya müharibəsi, ölkənin dərdi-səri Gülsüm xanımın həyatına çökmüşdü. İstər-istəməz ictimai əmək fəaliyyətini müharibənin tələbinə uyğun qurdu. Sıravi vətəndaş kimi mübarizəyə qoşuldu. Gülsüm xanım Sovet qadınlarının antifaşist komitəsinin üzvü kimi Moskva radiosundan ingilis qadınlarına müraciət etdi.

* * *

Səhər dan yeri sökülməmiş Lvov hərbi bazasındakı tank korpusu müdafiə mövqeyi tutmaq üçün geri çəkilmişdi. Nəcəf öz vzvodu ilə ön cəbhəyə göndərilməsi haqqında raport vermişdi. Batalyon komandiri, qvardiya mayoru Romanov Nəcəfin şəxsi işində yazmışdı: “Nəcəf Nərimanov “ön mövqeyə göndərilməsi barədə dəfələrlə raport vermişdi. Yalnız özünün təkidli xahişindən və batalyon komandiri kimi mənim şəxsi binagüzarlığımdan sonra ön xəttə göndərilmişdir”.

Gülsüm xanım nə edəcəyini bilmirdi. Körpələr evinin Moskvadan Daşkəndə köçürülməsinə ciddi hazırlıq getməsi onun nigaranlığını artırmışdı. İki həftə keçsə də, Nəcəfdən bir xəbər yox idi. Bir gün Gülsüm xanım işdən evə qayıdarkən poçt qutusunda məktub gördü. Bu Nəcəfin cəbhədən ilk məktubu idi. O, dərhal açıb oxumağa başladı:

“Ana, cəbhədən ikinci məktubumdur ki, yazıram. Bilmirəm alacaqsan, ya yox? Lvovdan necə çıxdığından nigaranam. Səhhətin necədir?.. On səkkiz gün ərzində cəbhədə çox şey görmüşəm. Amma indi bir qədər rahatam. Almanların vəziyyəti ağırlaşır. Biz yaxşı müdafiə təşkil etmişik...”.

Gülsüm xanımda daxilən bir toxtaqlıq yarandı, pillələri tələm-tələsik çıxıb, qapını açdı. Mənzildə divanın üstündə əyləşib məktubu həyəcanla oxudu, öpdü, köksünə sıxıb, Nərimanovun portretinə baxdı, şükranlıq etdi. Ona elə gəldi ki, Nərimanov onun sevincinə şərikdi, məmnuniyyətlə gülümsəyir.

Nəcəf məktubunda yazmışdı: “Ümumiyyətlə, sakitlikdir. Biz möhkəm müdafiə təşkil etmişik. Çox şadam ki, alman dilini bilirəm, alman əsirləri ilə anlaşıqlı danışıram. Dünən 5 alman əsiri ilə jurnalistin qəzet üçün müsahibəsini tərcümə etdim. Əsirlər şaddırlar ki, onları güllələmirlər...

Onlarla 3 saata qədər söhbət etdim. Hamısı 21, hətta 19 yaşında gənclərdi. Müharibəyə nə üçün gəldiklərini bilmirlər, iki ildir döyüşürlər, cana gəliblər”.

1941-ci ilin son aylarında Cənubi-Qərb istiqamətində alman ordusunun sürətli hücumunun uğursuzluğu Adolf Hitler qərargahında ciddi narazılıq doğurmuşdu. 1942-ci ilin əvvəllərindən, cəbhədə qanlı döyüşlər gedirdi.

Düşmən qoşunları Moskvaya doğru can atırdı. Moskvanın müdafiəsi möhkəmləndirilmişdi. Məlumdur ki, bir çox idarə və təşkilatlar Orta Asiya respublikalarının mərkəzi şəhərlərinə köçürülmüşdü. Moskva uşaq evləri və idarə rəhbərləri də, o cümlədən Gülsüm xanım Daşkənd şəhərinə köçmüş burada fəaliyyətini davam etdirirdi. O, Moskvadakı qonşusu və rəfiqəsi Feliks Dzerjinskinin bacısı Yadviqa Edmundovna ilə fəal ictimai işə qoşulmuşdu. Leninqraddan və digər şəhərlərdən Daşkəndə köçürülmüş uşaqların qəbul edilib yerləşdirilməsi komissiyasında çalışırdı. O, xəstəlik ucbatından Moskvadan köçə bilməyən qonşusu Kuybışevin arvadı Olqa Nikolayevnaya göndərdiyi məktubunda yazırdı: “Daşkənd ikinci Moskva olmuşdur. Burada xeyli moskvalı vardır. İşim çoxdur. Nə gecəm var, nə gündüzüm. Uşaqlarla məşğul oluram. Müqəddəs işdir. Adam körpələrə baxanda ürəyi ağrıyır. Bu tifillərin günahı nədir? Nə qədər əziyyət çəkmişlər, əzab görmüşlər. Ölkə bu dəhşəti heç bir vaxt unutmayacaqdır”.

Gülsüm xanımın Nəcəflə əlaqəsi beş ay idi ki, kəsilmişdi. Cəbhədən ürəkaçan xoş xəbərlər eşidilmirdi. Gülsüm xanımın SSRİ Xalq Müdafiə Komissarlığına göndərdiyi teleqramlar əsasında Ordu siyasi idarələrinin axtarışları da nəticə verməmişdi. Ana sıxıntı və iztirablar məngənəsində idi.

Rəsmi sənədlərdən məlum olur ki, ağır döyüşlərin birində iki ayağından yaralanan Nəcəf çoxlu qan itirmiş, zəifləmişdir. Ona görə Saratov hərbi xəstəxanasında bir müddət müalicə olunur, komissiyadan keçəndən sonra Qorki şəhərində bərpa institutuna göndərilir. 1942-ci ilin baharında Moskvaya, evlərinə qayıdan kimi Daşkənddə yaşayan Gülsüm xanıma 30 mart 1942-ci il tarixli məktubunu göndərir: “Əziz ana! Mən çox şadam ki, səndən xoş xəbər eşitdim. Sən artıq bilirsən ki, mən sentyabrın 20-də (1941-ci ildə) hər iki ayağımdan yaralandım, dekabr ayınadək Saratov xəstəxanasında, sonra Qorkiyə göndərildim. İndi martın 10-dan burada, Moskvada bir ay müalicə olunacam...”.

Nəcəf yeni rütbə alması, paqonlarına “3 kubik” vurması barədə anasına xoş xəbər verir: “Məni yeni rütbəmlə təbrik edə bilərsən. Deməli, indi mən “Baş texnik leytenantam, yadında saxla”.

Saratov şəhərindən göndərdiyi məktubun bir yerində yazır: “Ana, mən indi yeni döyüşə hazırlaşıram. Tezliklə, yəqin ki, sentyabrın ortalarında cəbhəyə gedəcəm. Sən eşidibsənmi, Qərb cəbhəsində almanlar darmadağın edilib, Cənubi- Qərb cəbhəsində də onları vurmaq lazımdır. Almanları Qafqaza buraxmaq olmaz”.

Müharibə başlanan gündən Nəcəf silaha sarılmışdı. O, general-leytenant G.Sviridovun mexanikləşdirilmiş korpusunun tərkibində ön genişmiqyaslı əməliyyatda alman ordusu ilə qanlı döyüşlərdə qəhrəmancasına döyüşürdü. Yenidən dörd ay Cənubi-Qərb cəbhəsində alman ordusunun sıxışdırılıb qovulmasında iştirak etmişdi.

Döyüşlərin birində ağır yaralanmış, beş ay hərbi xəstəxanada müalicə olunmuşdur. Məhz bu zaman Gülsüm xanım Müdafiə Komissarlığına xahişlə müraciət etmiş, Nəcəfin 1941-1943-cü illərdə onun Stalinqradın müdafiəsində və Cənubi-Qərb cəbhəsində döyüşdüyünü, ağır yaralanıb 5 ay müalicə olunduğunu, Stalinqradın müdafiəsi və igidliyə görə döyüş mükafatı almasını, alman, ingilis, türk dillərini bilməsini, mübaribə Nəcəfin İ.Stalin adına Hərbi Akademiyada təhsilinə imkan vermədi. 2-ci kursdan könüllü cəbhəyə getdi. Xahiş edir ki, onun xidmətlərini və səhhətini nəzərə alıb təhsilini davam etdirməyə icazə versinlər. Müraciətin cavabından səs-soraq gecikirdi.

1943-cü il avqustun axırlarında hərbi xəstəxanadan buraxılan günün ertəsi Nəcəf Nərimanov ölkənin Cənub-Qərb istiqamətində mövqe tutan general-leytenant K.V.Sviridovun mexanikləşdirilmiş korpusuna göndərildi. Həmin korpusun daxil olduğu Cənub cəbhəsi komandanlığının üçüncü qvardiya diviziyası mühüm tapşırığa hazırlaşırdı: Tufandan qabaq dəryada görünən sakitlik kimi döyüş meydanında da əməliyyat səngimişdi. Lakin Stalinqradda qarşı-qarşıya dayanmış hərbi hissələrdə müharibənin taleyini həll edəcək böyük döyüşə hazırlıq gedirdi. General-leytenant K.V.Sviridovun korpusu Stalinqradın yaxınlığında mövqe tutmuşdu. Qvardiya baş texnik leytenantı Nəcəf Nərimanov öz vzvodu ilə yorulmaq bilmədən korpusda tankların texniki vəziyyətini nəzərdən keçirirdi. Bu dövrdə Nəcəf kommunist partiyası sıralarına qəbul edildi. Bundan xəbər tutan Gülsüm xanım ümumittifaq radiosu ilə çıxışlarının birində öz sevincini bildirdi. Oğluna ürək sözlərini çatdırdı.

— Mənim əzizim! Kommunist Partiyamızın üzvü olmağın haqqındakı xəbərin məni çox sevindirdi. Oğlum, səni ürəkdən təbrik edirəm! Vaxtın bu qədər tez keçdiyinə inana bilmirəm. Axı, lap bu yaxınlaradək sən pioner idin... İndi komandirsən, partiya üzvüsən. Sənin atan bu partiyanın sıralarında uzun illər boyu xalqımızın azadlığı və səadəti uğrunda mübarizə aparmışdır. O, gecə-gündüz işləməyi bacarırdı, dincəlməyi məsləhət görən həkimlərə qulaq asmırdı. Nəcəf, yadında saxla ki, sən Nəriman Nərimanovun oğlusan. Bilirəm ki, bunu bir dəqiqə də olsun unutmursan. Sənin öhdənə şərəfli vəzifə - vətəni faşist quldurlarından müdafiə etmək vəzifəsi düşmüşdür. Faşistlərin törətdikləri cinayətlərdən nə qədər qəzəbləndiyimi ifadə etməyə söz tapmıram. Bu vəhşilər bizim xoşbəxt həyatımıza qəsd etmişlər.

Mən, Şərqin mənim kimi minlərlə qadını yalnız Sovet hakimiyyəti illərində çadramızı atmış, oxumuş, işləmiş, övladlarımızı tərbiyə edə bilmişik. Sən yaşa dolmusan, mən təhsilimi başa vurmuşam. Deməli, biz uzun zaman xoşbəxt yaşaya bilərik. Müharibə başlandı və bizi bir-birimizdən ayırdı. Lakin düşmən xalqımıza heç vaxt diz çökdürə bilməyəcəkdir.

Əzizim, məndən nigaran qalma. Moskvadayam. Hamı qayğı göstərir...

Özünü necə hiss etdiyin barədə, işlərin haqqında mənə tez-tez yaz. Döyüş yoldaşlarına məndən salam yetir...

1942-ci ilin sentyabrında Alman ordusunun böyük zirehli dəstələri, yüzlərlə təyyarələri hələməyə keçdi. Sovet ittifaqı marşalı V.İ.Çuykov yazır ki, çarpışmanın qızğın vaxtında “Alman faşist komandanlığı şəhərə daha üç təzə diviziya gətirdi, güclü zərbə qruplaşması yaratdı. Düşmən təyyarələrinin sayı əvvəllər də hər gün mindən çox olurdu, 1942-ci il oktyabrın 14-də isə rekord rəqəmə - 2540-a çatdı. Ətrafda hər şey alovlanırdı. Düşmən artilleriyası və aviasiyası neft çənlərini yandırırdı. Alova bürünmüş neft axırdı. Alovun hündürlüyü bəzən 800 metrə çatırdı. Elə bil torpaq da yanırdı, Volqa da...

***(davamı növbəti saylarımızda)***

**Teymur ƏHMƏDOV.**

# Görkəmli alim və pedaqoq



Canbaxış Əli oğlu Nəcəfov 1949-cu ildə Qubadlı rayonunun Əyin kəndində anadan olub. Orta təhsilini doğma Əyin, Çardaxlı və Qubadlı məktəblərində almışdır. Ali təhsilini isə 1968-1973-cü illərdə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) biologiya fakültəsində alıb. O, tələbəlik illərindən elmə böyük maraq göstərib. Üçüncü kursdan başlayaraq professor Abdulla Ələkbərovun rəhbərliyi altında elmi-tədqiqat işləri ilə məşğul olub. İlk elmi əsərini də "Universitetin elmi əsərlər toplusu"unda çap etdirib. Elmi fəaliyyətə dərin maraq göstərməsi, tədqiqat işinə meyilliyi müəllimlərinin də diqqətini cəlb edib. 1971-ci ildə isə fakültənin Tələbə elmi cəmiyyətinə sədr seçilib.

Universiteti bitirdikdən sonra C.Nəcəfov Qubadlı rayonunda biologiya müəllimi kimi əmək fəaliyyətinə başlayıb. Amma gənc nəslə bilik öyrətmək nə qədər maraqlı və qürurverici olsa da, elmə olan hədsiz marağı onun qəlbində işıqlı arzular oyadır.

Professor C.Ə.Nəcəfovun elmi və elmi-pedaqoji fəaliyyətini şərti olaraq 4 dövrə bölmək olar: 1. AMEA-nın Zoologiya İnstitutundakı fəaliyyəti. 2. Azərbaycan Baş Pedaqoji Kadrların İxtisasının Artırılması və Yenidən Hazırlanması İnstitutu - Müəllimlər İnstitutu. 3. Azərbaycan Tibb Universiteti. 4. Bakı Dövlət Universiteti.

Tələbəlik illərindən başladığı tədqiqatları davam etdirmək üçün gənc bioloq yenidən paytaxta qayıdaraq 1973-cü ildə qəbul imtahanlarını müvəffəqiyyətlə verib Azərbaycan Milli Elmlər Akademiyasının Zoologiya İnstitutunun əyani aspiranturasına daxil olmuşdur. Professorlar N.Əhmədov və R.Jenevskayanın rəhbərliyi altında namizədlik dissertasiyası üzərində çalışmışdır. Sonra elmi-tədqiqat işlərini Moskva şəhərində SSRİ Elmlər Akademiyasının A.Severtsov adına Heyvanların Təkamül Morfologiyası və Ekologiyası İnstitutunun "Təkamül histologiyası" laboratoriyasında yekunlaşdırıb. 1980-ci ildə həmin institutda akademik V.E.Sokolovun sədrlik etdiyi elmi şurada namizədlik dissertasiyası müdafiə etmiş, embriologiya və histologiya ixtisası üzrə biologiya elmləri namizədi alimlik dərəcəsi almışdır. Elmlər namizədi alimlik dərəcəsini almaq gənc alimin yeni tədqiqatlarına yol açır. C.Nəcəfov elmi-tədqiqat işlərini yeni mövzu üzərində davam etdirir. O, 1973-cü ildən 1992-ci ilədək AMEA Zoologiya İnstitutunda əvvəlcə aspirant, sonralar isə bir neçə laboratoriyada baş laborant, kiçik elmi işçi və baş elmi işçi vəzifələrində çalışmışdır. Doktorluq dissertasiyasını Bakı və Moskva şəhərlərində yerinə yetirmiş və AMEA-nın Zoologiya İnstitutunda (1996) müdafiə etmişdir. Bununla da o, elm üçün xüsusi əhəmiyyət daşıyan qanunauyğunluqlar aşkar etmişdir. Təsadüfi deyil ki, onun elmi nəticələri o dövrün mötəbər jurnallarında nəşr olundu və Sovetlər birliyinin görkəmli alimləri tərəfindən yüksək qiymətləndirildi. C.Nəcəfovun apardığı elmi-tədqiqat işləri nəticəsində sümüklü balıqların somatik əzələlərinin inkişafında yeni morfoloji mərhələ — əzələ plastinkası mərhələsi aşkar edilib. O, suda-quruda yaşayan heyvanların skelet əzələlərinin embrional inkişafında histogenetik qradient müəyyənləşdirib. Bu da özünü rüşeym və ilk çömçəquyruq mərhələsində daha aydın göstərir. Sürünənlərdən Aralıq dənizi timsahında reqressiv təkamül prosesi ilk dəfə Canbaxış müəllim tərəfindən tapılıb və elmi dəlillərlə əsaslandırılıb. O, Qafqaz gürzələrinin ümumi embrional inkişafının süni şəraitdə inkubasiya olunmasının və somatik əzələlərinin histogenezini öyrənərkən bir çox elmi yeniliklər aşkar edib. Bunlardan əzələ dəstlərinin dolma qanunauyğunluğu məsələsi morfoloq alimlərin diqqətini daha çox cəlb edib. Alim onurğalı heyvanların somatik əzələlərinin müqayisəli embrional histogenizini elektron mikroskopla və müasir biokimyəvi metodlarla öyrənib, bu sahədə elm üçün yeni məlumatlar əldə edib. O, 1992-ci ildə Baş Pedaqoji Kadrların İxtisasının Artırılması və Yenidən Hazırlanması İnstitutunda (sonralar Müəllimlər İnstitutu adlandırıldı) Biologiya və kimya fənlərinin tədrisi metodikası kafedrasında baş müəllim, 1995-ci ildən həmin kafedranın müdiri vəzifəsinə seçilib. Pedaqoji fəaliyyəti dövründə biologiyanın tədrisi metodikası sahəsində müəllimlər, ali məktəb tələbələri və orta məktəb şagirdləri üçün dərslik vəsaitləri hazırlayıb. Professorun "Zoologiyanın tədrisi metodikası", "Orta məktəblərdə botanikanın tədrisi metodikası", "Reproduktiv sağlamlığın əsasları", "Orta məktəblərdə insanın anatomiyası, fiziologiyası və gigiyenasının tədrisi metodikası", "Ümumi biologiyanın tədrisi metodikası" dərslikləri və dərs vəsaitlərindən tədris ocaqlarında geniş istifadə olunur. Alimin "Uşaq anatomiyası və fiziologiyası" adlı ali məktəb dərsliyi təkcə Azərbaycanda deyil, Türkiyədə əsas dərslik kimi istifadə olunur. Müəllimlər İnstitutunda işlədiyi zaman orta məktəblərin biologiya dərsliklərinin təkmilləşməsində, yeni elmi faktlarla zənginləşməsində əməyi çox olmuşdur. O, Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının eksperti kimi də faydalı işlər görmüşdür. Bu dövrdə o, biologiyanın tədrisi metodikası sahəsində tədqiqat işləri aparmış və elmi kadrlar da hazırlamışdır.

Üçüncü mərhələ onun Azərbaycan Tibb Universitetində işlədiyi dövrü əhatə edir. Prof. C.Ə.Nəcəfov 2007-ci ildə müsabiqə yolu ilə Azərbaycan Tibb Universitetinin Tibbi biologiya və genetika kafedrasının müdiri seçilib. Bu dövr alimin nisbətən gənc yaşlarına təsadüf edir və daha məhsuldar dövr kimi xarakterizə olunur. Bu kafedrada biologiya fənninin həkimlərin nəzəri hazırlığında mühüm rol oynadığı nəzərə alındığından müxtəlif bioloji problemlər (həyatın mahiyyəti və orqanizmlərin quruluş səviyyəsi, hüceyrə haqqında ümumi məlumat, ontogenezin biologiyası və mexanizmi, embrional inkişafın əsas qanunauyğunluqları, sağlamlıq və xəstəliyə bioloji baxış, ümumi genetikanın əsasları, genlərin ilişikli keçməsi və qarşılıqlı təsiri, insan genetikasının əsasları, tibbi parazitologiya, parazit qurdlar və onların tibdə əhəmiyyəti, onurğalı heyvanlar və onların müqayisəli anatomiyası, zəhərli heyvanlar, onların tibdə əhəmiyyəti və s.) tədris olunur. Ona qədər Tibb Universitetinin tələbələri üçün müasir dövrün tələblərinə cavab verən, tibb ilə biologiya elminin əlaqələrini özündə əks etdirən sanballı dərslik yox idi. Bunu nəzərə alaraq prof. C.Ə.Nəcəfov rəhbərlik etdiyi kafedranın əməkdaşları ilə birlikdə "Tibbi biologiya və genetikanın əsasları" (2008), "Tibbi-bioloji terminlərin izahlı lüğəti", rus və Azərbaycan dillərində ikicildlik, "Tibbi biologiya və genetikanın əsasları" (2010, 2013), "Tibbi biologiya və tibbi genetika" (2017) və "Tibbi biologiya və genetikadan laboratoriya məşğələləri", "İnkişafın biologiyası və genetikası" (2009), rus və Azərbaycan dillərində "Azərbaycanın kirpiləri" dərsliklər və monoqrafiyalarını hazırlayıb nəşr etdirmişdir. Onun dərsliklərinin əksəriyyəti ingilis, rus və türk dillərinə tərcümə edilib. Prof. C.Ə.Nəcəfov Tibb Universitetində işlədiyi müddətdə universitetdə minlərlə soydaşımızla yanaşı, çoxsaylı xarici ölkələrdən gəlmiş yüzlərlə tələbələrə biologiya fənninin sirlərini yüksək səviyyədə öyrətmək üçün və kafedranın maddi-texniki bazasının zənginləşməsi istiqamətində bir çox işlər görmüşdür. Son illər müxtəlif böyütmə qabiliyyətinə malik olan mikroskop və kompüterlərin əldə olunması dediklərimizə əyani sübutdur. Prof. C.Ə.Nəcəfovun rəhbərliyi altında ATU-nun Tibbi biologiya və genetika kafedrasının əməkdaşlarından 5 nəfəri biologiya üzrə fəlsəfə doktoru dissertasiyasını müvəffəqiyyətlə müdafiə edib, diplom almışdır.

Prof. C.Ə.Nəcəfov 2018-ci ilin fevral ayından müsabiqə yolu ilə Bakı Dövlət Universitetinin Zoologiya kafedrasına müdir seçilmişdir. Universitetdə işlədiyi qısa müddət ərzində o, kafedra və fakültə kollektivinin dərin hörmətini qazanmışdır. Kafedra əməkdaşları ilə birlikdə ilk dəfə olaraq iki hissədən ibarət "Zoologiyadan praktiki məşğələ albomu"nu hazırlayıb tələbələrin ixtiyarına vermişdir. Birinci hissə onurğasız heyvanları, ikinci hissə isə onurğalı heyvanları öyrənməyə xidmət edir. Universitet tələbələrinin bakalavr tədris pilləsi üçün ikicildlik "Zoologiya" dərsliyinin II hissəsini hazırlanaraq, nəşrə təqdim olunub, I hissəsi üzərində isə iş davam etdirilir.

Görkəmli bioloq alim C.Ə.Nəcəfov 1994-cü ildə Nyu-York Elmlər Akademiyasının, 2013-ci ildə isə Beynəlxalq Ekoenergetika Akademiyasının həqiqi üzvü seçilib. O, uzun illər AAK-ın Biologiya və Tibb elmləri üzrə ekspert komissiyasının, Azərbaycan Təhsil Nazirliyinin Biologiya və aqrar elmlər üzrə elmi metodiki şuranın əvvəlcə üzvü, sonra isə sədr müavini kimi də fəaliyyət göstərmişdir. Hazırda AMEA-nın Zoologiya İnstitutunda fəaliyyət göstərən ixtisaslaşmış doktorluq dissertasiyası şurasının və BDU-nun biologiya fakültəsində elmi şüranın üzvüdür.

Prof.C.Ə.Nəcəfov çox əməksevər və məhsuldar alimlərdəndir. Onun 250-dən çox elmi məqaləsi dünyanın məşhur jurnallarında nəşr olunub. Bu məqalələr orta məktəb müəllimləri, şagirdləri və böyük əksəriyyəti isə ali məktəb tələbələri üçün yazılıb. Monoqrafiyaları isə zooloq və morfoloq alimlərin stolüstü kitabıdır.

Gənc kadrların hazırlanmasında aktiv fəaliyyət göstərən alimin rəhbərliyi altında 7 fəlsəfə doktoru, bir nəfər biologiya elmləri doktoru hazırlanmışdır. Hazırda 4 nəfər fəlsəfə doktorunun rəhbəri və 3 nəfər elmlər doktorunun elmi məsləhətçisidir.

Professor C.Ə.Nəcəfov ömrünün 70-ci baharını yaşayır. Ona cansağlığı və elmi-pedaqoji fəaliyyətində yeni-yeni uğurlar arzulayırıq.

**Xudaverdi QƏNBƏROV,**
**Bakı Dövlət Universitetinin Mikrobiologiya kafedrasının müdiri,**
**biologiya elmləri doktoru, professor.**

*18 Aprel - Tarixi abidələrin mühafizəsi günüdür*

# Tarixi abidələr əcdadlarımızın nəsillərə əmanətidir

**Bəzən bir xalqın hansı sivilizasiya və mədəniyyətə mənsubluğu haqqında illərlə, əsrlərlə arxivlərdə, kitabxanalarda qorunan yazılı mənbələrdən daha çox o xalqın tarixini, mədəniyyətini təsdiqləyən, dünənini, keçmişini, varlığını özündə əks etdirən, əsrlərin daş yaddaşı - abidələr danışır. Bəzən əsrlər, qərinələr boyu daş olub susan bu abidələr elə bir məqamda dil açıb danışır ki, bu faktlar təsdiqsiz, şərhsiz, şahidsiz qəbul edilir...**

Zamanın sərt dönəmlərindən keçib bu günümüzə qədər yol gələrək, sözün əsl mənasında, tariximizə iz salan maddi mədəniyyət nümunələrimiz - əzəmət, vüqar, yenilməzlik rəmzi olan abidə qalalarımız, inanc yerlərimiz olan məscid - ibadətgahlarımız, məqbərə və türbələr, saray və bürclər qədim tariximizin aynası, xalqımızın mübarizliyindən, yenilməzliyindən soraq verən daş salnamələrimiz olmaqla bərabər, eyni zamanda, Azərbaycan memarlıq sənətinin yüksək bədii zövqünün məhsuludur.

Tarixin yadigarı olan bu abidələr bəzən texnogen aşınmalar, təbiət hadisələri nəticəsində, bəzən isə müharibələr, münaqişələr zəminində məhv olur. Min illərlə ömrü olan bu mənəvi dəyərlərimizə bu gün dövlətimiz tərəfindən böyük qayğı və diqqət göstərilir. Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu tarixi irsimizin və mədəniyyətimizin qorunmasına yönəlmiş siyasi kursunu layiqincə davam etdirən ölkə başçısı İlham Əliyevin göstərişi ilə bu istiqamətdə aidiyyəti qurumlar fəaliyyət göstərir. Belə dövlət qurumlarından biri də Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin nəzdində fəaliyyət göstərən "Azərbərpa" Elmi-Tədqiqat Layihə İnstitutudur. Bu günlərdə institutun direktoru, Əməkdar mühəndis, memarlıq üzrə fəlsəfə doktoru Telman Kərimli ilə görüşüb son illər tarixi abidələrimizin bərpası, mühafizəsi istiqamətində görülən işlər barədə məlumat aldıq. O dedi: "Azərbaycan Respublikası Nazirlər Kabinetinin 11 sentyabr 1992-ci il tarixli 500 saylı qərarına uyğun olaraq Tarix və Mədəniyyət Abidələrinin Mühafizəsi və Bərpası Komitəsinin 30 noyabr 1992-ci il tarixli 2 saylı əmrinə əsasən Elmi-Layihə Bürosunun və Xüsusi Elmi- Bərpa Emalatxanasının bazaları əsasında Abidələrin Bərpası Elmi-Tədqiqat Layihə İnstitutu yaradılmışdır.



2000-ci ildə Azərbaycan Respublikası Prezidentinin 03.02.2000-ci il tarixli 270 saylı Fərmanı ilə "Tarix və Mədəniyyət Abidələrinin Mühafizəsi və Bərpası Komitəsi" ləğv edilmiş və bütün səlahiyyətləri Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinə verilmişdir. İnstitut isə Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə Abidələrin Bərpası Elmi-Tədqiqat Layihə İnstitutu adı ilə Mədəniyyət Nazirliyinin tabeliyində fəaliyyətini davam etdirmişdir.

İnstitut ölkə başçısının fərmanı ilə nazirliyin strukturuna daxil olmuş və əsasnaməsində dəyişiklik edilərək "Azərbərpa" Elmi-Tədqiqat Layihə İnstitutu adını almışdır. Fəaliyyətə başladığı ilk gündən tarix və mədəniyyət abidələrinin mühafizəsini həyata keçirən "Azərbərpa" ETLİ-də son 15 il ərzində institutun mütəxəssisləri tərəfindən respublika ərazisində yerləşən 100-ə yaxın abidənin elmi-bərpa layihəsi hazırlanmış, onların bir çoxunda həmin layihə əsasında institutun mütəxəssislərinin müəllif nəzarəti ilə bərpa işləri aparılmış, eyni



zamanda uyğunlaşması layihəsi də hazırlanmışdır. Onu da qeyd edim ki, memarlıq abidəsinin müasir istifadəsi üçün uyğunlaşdırılması mürəkkəb məsələdir və təkcə abidənin tarixi-bədii əhəmiyyətinin deyil, həm də onun konstruktiv və texniki xüsusiyyətlərinin hərtərəfli nəzərə alınmasını tələb edir. Venetsiya xartiyasında da abidələrin mümkün qədər istifadə olunmasının vacibliyi qeyd olunur. Zamanın tələblərinə uyğun olaraq abidənin bu və ya başqa məqsəd üçün istifadə olunması onun daimi qorunması üçün müvafiq tədbirlərin həyata keçirilməsinə şərait yaradır. Abidələrin uzunömürlülüyünün təmin olunması məqsədilə son dövrlər hazırlanan layihələrdə bu amil xüsusilə nəzərə alınır.

İnstitut tərəfindən Şəki şəhərindəki "Aşağı Karvansara"nın, "Şəkixanovların evi"nin və Nakam adına kitabxananın, Bərdə rayonundakı "Allah-Allah" türbəsinin, Gəncə şəhərindəki "Şah Abbas" və "Uğurlu xan" karvansaralarının, Quba rayonu, Rustov kəndindəki və Xınalıq kəndindəki, həmçinin Balakən rayonundakı və Salyan şəhərindəki məscidlərin, Nardarandakı "Xan bağı"nın, Hacıqabul rayonundakı "Pir Hüseyn" xanəgahının, Bakı şəhəri Suraxanı qəsəbəsindəki "Atəşgah" məbədinin, Füzuli rayonunun Babı kəndindəki "Şeyx Babı" türbəsinin, Lənkəran şəhərindəki "Mirəhməd xanın evi"nin, Şabran rayonundakı "Çıraqqala" və "Şabran şəhəri" və s. abidələrin bərpası, konservasiyası və istifadəsi layihəsi də hazırlanmışdır.

Qürurverici haldır ki, institutumuzun mütəxəssislərinin hazırladığı sənədlər əsasında respublikanın unikal abidələri "İçərişəhər" DTMQ (Qız qalası, Şirvanşahlar sarayı kompleksi ilə birlikdə) və "Qobustan" Milli Tarix-Bədii Qoruğu YUNESKO-nun Dünya İrsi Siyahısına salınmışdır. Hazırda institutun mütəxəssisləri tərəfindən Şəkinin tarixi hissəsinin Dünya Mədəni İrs siyahısına salınması üzrə işlər davam etdirilir. Eyni zamanda, abidələrin beynəlxalq standartlara uyğun pasportları, qoruq zonaları, habelə abidələrin qorunması üzrə normativ sənədlərin hazırlanması da institutun mütəxəssisləri tərəfindən aparılır. Bu günə qədər "Azərbərpa" ETLİ tərəfindən 250-yə qədər abidəyə pasport hazırlanmış, 100-dən artıq abidənin qoruq zonası müəyyənləşdirilmiş, bir sıra normativ sənədlər tərtib edilmişdir.

Onu da qeyd etmək istəyirəm ki, respublikada memarlıq və şəhərsalma abidələrinin elmi-bərpa layihələrini hazırlayan yeganə təşkilat olan "Azərbərpa" Elmi-Tədqiqat Layihə İnstitutunun arxivində son 70 ilə yaxın tədqiq edilmiş yüzlərlə memarlıq abidələrinin dəqiq ölçü cizgiləri, bərpa layihələri, pasportları, maketləri və fotoları saxlanılır. Qarabağ və Azərbaycanın işğal olunmuş digər ərazilərindəki memarlıq irsi haqqında dəqiq məlumat və həmin abidələrin ölçü cizgiləri də institutun arxivində qorunur.

Hazırda "Azərbərpa" ETLİ-də kifayət qədər iş təcrübəsi olan mütəxəssislərlə yanaşı, gələcəyin bərpaçı memarları olan gənc kadrlar da çalışır. Yaşından, təcrübəsindən, vəzifəsindən asılı olmayaraq, institutda çalışan hər bir əməkdaşımız əcdadlarımızın bizə əmanəti olan, qədim tariximizi özündə yaşadan mədəniyyət abidələrinin mühafizəsini, bərpasını müasir səviyyədə təşkil etmək, mədəni irsimizin bərpası, öyrənilməsi istiqamətində əllərindən gələni əsirgəmirlər. Lakin zəngin, özünəməxsus mədəniyyətimizi, dövlətçilik ənənələrimizi özündə ehtiva edən, yaşadan bu tarixi abidələrimizi qoruyub saxlamaq, gələcək nəsillərə əmanət etmək isə təkcə mütəxəssislərin deyil, hər bir vətəndaşın ən ümdə vəzifəsidir.

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**



## DÜNYA BUGÜN

*FAKTLAR, HADİSƏLƏR, ŞƏRHLƏR*

### İSTANBULUN YENİ BƏLƏDİYYƏ SƏDRİ VƏZİFƏSİNİN İCRASINA BAŞLAYIB



İstanbulun Əyalət Seçki Komissiyası Türkiyənin müxalif Cümhuriyyət Xalq Partiyasının (CHP) namizədi Əkrəm İmamoğluna İstanbul Böyükşəhər Bələdiyyəsinin sədri vəsiqəsinin təqdim edilməsi barədə qərar qəbul edib. "Report" agentliyinin Türkiyənin "NTV" telekanalına istinadən verdiyi xəbərə görə, bu barədə CHP-nin İstanbul əyalət təşkilatından bildirilib.

Verilən xəbərə görə, aprelin 17-də Əkrəm İmamoğlu seçki komissiyasına dəvət olunub və vəsiqə ona təqdim edilib. Əkrəm İmamoğlu mandatını aldıqdan sonra İstanbul Böyükşəhər Bələdiyyəsinin binasında fəaliyyətdə olan sədr Mövlud Uysaldan vəzifəni təhvil alaraq icrasına başlayıb.

Qeyd edək ki, martın 31-də Türkiyədə bələdiyyə seçkiləri keçirilib. Ədalət və İnkişaf Partiyası İstanbuldakı nəticələrə etiraz edib. Nəticədə 318 min 222 etibrasız bülletenin yenidən sayılmasına qərar verilib. Etibarsız səslərin və İstanbulun bəzi rayonlarında bülletenlərin təkrar sayılmasından sonra Əkrəm İmamoğlu 13 min 729 səs fərqi ilə qalib gəlib.

Son rəqəmlərə əsasən, Binəli Yıldırım 4 milyon 156 min 36 səs, Əkrəm İmamoğlu isə 4 milyon 169 min 765 səs toplayıb.

### İRANIN XİN BAŞÇISI TRAMPIN QƏRARINA REAKSİYA VERİB



İranın xarici işlər naziri Məhəmməd Cavad Zərif açıqlamasında ABŞ Konqresinin Yəməndə Səudiyyə Ərəbistanına verilən dəstəyin kəsilməsini nəzərdə tutan qanun layihəsinə Donald Tramp tərəfindən veto qoyulmasını tənqid edib. Bu barədə "TRT" telekanalı məlumat yayıb.

Məhəmməd Cavad Zərif açıqlamasında deyib: "Hətta ABŞ Konqresi belə, Mərkəzi Qüvvələr Komandanlığının Yəməndəki destabilizasiya fəaliyyətlərinə son qoymaq istəyir. Lakin İsrailin baş naziri Benyamin Netanyahuya üstünlük verənlər və onların Ağ Evdəki dəstəkçisi amerikalıları həyatları bahasına və ABŞ-ın maraqlarına zidd bir şəkildə sonsuzadək müharibəyə məhkum etməyə davam edəcək".

ABŞ-ın Yəməndə Səudiyyə Ərəbistanına verdiyi dəstəyin kəsilməsini nəzərdə tutan qanun layihəsi aprelin 4-də Nümayəndələr Palatasında 175 səsə qarşı 247 səslə, Senatda isə martın 13-də 46 səsə qarşı 54 səslə qəbul edilmişdi.

Sözügedən layihədə "Əl-Qaidə" terror qruplaşması ilə döyüşənlərdən başqa, Yəməndəki müharibədə iştirak edən bütün ABŞ hərbi qüvvələrinin 30 gün ərzində geri çəkilməsi nəzərdə tutulurdu.

Verilən xəbərə görə, Donald Tramp layihəyə onun "Amerikanın xarici siyasəti üçün təhlükəli olduğunu" əsas gətirərək veto qoyub.

Məlumata görə, Vaşinqton rəhbərliyinin paytaxt Səna və bəzi bölgələri əlində saxlayan husilərə qarşı Səudiyyə Ərəbistanına dəstək verdiyi Yəmən müharibəsində minlərlə insan həlak olub.

BMT dünyanın ən böyük humanitar böhranlarından birinin baş verdiyi Yəməndə əhalinin yarısını təşkil edən 10 milyon insanın aclıq riski ilə qarşı-qarşıya olması ilə bağlı xəbərdarlıq edib.

### NOTR-DAM KİLSƏSİNİN BƏRPASI ÜÇÜN QANUN LAYİHƏSİ HAZIRLANIR



Paris Notr-Dam kilsəsinin bərpası üçün qanun layihəsi hazırlanır. "Report" agentliyinin verdiyi xəbərə görə, bunu Fransanın baş naziri Eduard Filip hökumət üzvləri ilə keçirdiyi toplantıdan sonra jurnalistlərə açıqlamasında bildirib.

Baş nazirin sözlərinə görə, layihədə kilsənin bərpası ilə məşğul olacaq yeni dövlət qurumunun yaradılması nəzərdə dutulub. "Qanun layihəsi bir həftə ərzində hazırlanaraq hökumətə təqdim olunacaq. Sənəddə xüsusilə ianələrdən düzgün, şəffaf surətdə istifadə edilməsi üçün zəmanət məsələsi də öz əksini tapacaq", - deyə Eduard Filip əlavə edib.

Eyni zamanda, baş nazir qeyd edib ki, Notr-Dam kilsəsinin dağılan qülləsini bərpa etmək üçün beynəlxalq memarlıq müsabiqəsi keçiriləcək.

Bununla yanaşı, verilən xəbərə görə, "Notr-Dam-de-Pari" kilsəsinin bərpası üçün toplanan ianələrin miqdarı artıq 1 milyard avroya çatıb. Vəsait əsasən böyük şirkətlərdən və iş adamlarından, eləcə də Fransa Mədəniyyət Nazirliyi tərəfindən seçilmiş dörd ictimai fonddan daxil olur.

Xatırladaq ki, aprelin 15-də Paris Notr-Dam kilsəsində yanğın baş verib və kilsə üzərindəki uzun qüllənin bir hissəsi aşıb, həmçinin məbədin saatı yanaraq sıradan çıxıb. Prezident Emmanuel Makron xalqa müraciətində tarixi kilsəni beş il ərzində bərpa etməyi nəzərdə tutduqlarını bildirib.

### ABŞ VƏ TÜRKİYƏ FİKİR AYRILIQLARINI ARADAN QALDIRA BİLMƏYİB



Rəsmi Vaşinqton və Ankara bu həftə keçirilən məsləhətləşmələr zamanı Rusiyanın "S-400" zenit-raket sistemlərinin Türkiyəyə satışı ilə bağlı fikir ayrılıqlarını aradan qaldıra bilməyiblər. "Report" agentliyinin məlumatına görə, bu barədə "The Wall Street Journal" qəzeti xəbər verib.

Qəzetin məlumatına əsasən, ABŞ və Türkiyə rəsmi Ankaranın Rusiyanın hava hücumundan müdafiə sistemlərini alması planları ilə bağlı razılığa gələ bilməyiblər.

Qeyd edilir ki, ABŞ və Türkiyənin nümayəndələri mövzunu bu həftə Vaşinqtonda müzakirə ediblər. Sözügedən məsələ həmçinin ABŞ prezidenti Donald Trampla Türkiyənin maliyyə naziri Berat Albayrakın görüşündə də diqqət mərkəzində olub.

Nəşrin məlumatına görə, eyni zamanda, Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın rəsmi təmsilçisi İbrahim Kalın ABŞ tərəfinə bildirib ki, ölkəsinin "S-400" zenit-raket kompleksləri almasına görə Birləşmiş Ştatların mümkün sanksiyaları ikitərəfli münasibətlərə ziyan vuracaq və nəticəsiz olacaq. O, həmçinin əlavə edib ki, Türkiyə ABŞ istehsalı olan "Patriot" zenit-raket komplekslərini almağa və hansı sistemin daha yaxşı olmasını yoxlamağa hazırdır.

Bununla yanaşı, nəşr yazır ki, Türkiyə "S-400" raketlərini yaxın aylarda quraşdırmağa başlaya bilər. Bu isə danışıqların dirəndiyi dalandan çıxış yollarını tapmaq üçün daha az vaxtın qalması anlamına gəlir.

Qeyd edək ki, martın 6-da ABŞ Dövlət Departamenti Türkiyəni sanksiyalarla hədələyib. Belə ki, Türkiyə Rusiyadan "S-400" kompleksləri alarsa, Birləşmiş Ştatlar sanksiyalar tətbiq edəcəklərini açıqlayıb.

### DÜNYA ÜZRƏ QIZILCA XƏSTƏLİYİ DÖRD DƏFƏ ARTIB



Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) dünyada qızılca xəstəliyinin bu ilin ilk üç ayında ötən illə müqayisədə dörd dəfə artdığını açıqlayıb. "Sputnik" informasiya agentliyinin məlumatına görə, ÜST-ün hesabatına əsaseq, hazırda dünyanın bir çox ölkələrində qızılca sürətlə yayılmaqdadır.

Konqo Demokratik Respublikası, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Madaqaskar, Myanma, Filippin, Sudan, Tailand və Ukrayna kimi ölkələrdə sürətlə yayılan xəstəlik, başda azyaşlı uşaqlar olmaqla çox sayda insanın ölümünə səbəb olub. Hesabata görə, 2017-ci ildə 110 min insan qızılcadan dünyasını dəyişib.

Bildirilir ki, qızılca xəstəliyi görmə və eşitmə qabiliyyətinin itirilməsinə, beyində müxtəlif problemlərə, habelə xəstəlikdən sonrakı dövrdə də müxtəlif fəsadlara səbəb olur.

Eyni zamanda, ÜST bildirir ki, bu ilin ilk üç ayında 170 ölkədə 112163 qızılca faktı qeydə alınıb. Ötən il isə 168 ölkədə 28124 xəstəlik faktı qeydə alınmışdı. Bu, qızılca faktlarının dəfələrlə artması deməkdir.

Qızılca xəstələri Afrikada 700, Avropada 300, Şərqi Aralıq dənizi hövzəsində 100, Amerika qitəsində 60, Cənub-Şərqi Asiya və Qərbi Sakit okeanı regionunda 40 faiz artıb.

Məlumat üçün qeyd edək ki, qızılca xəstəliyi halsızlıq, öskürək, burun axması, gözlərdə qızartı ilə başlayır. Sonra xəstənin bədəni qızartılarla örtülür. Qızılca həmçinin qulaq infeksiyasına, ishala, sətəlcəmə səbəb olaraq ölümlə nəticələnə bilər.

### SARIMSAQ YADDAŞ ZƏİFLİYİNİ ARADAN QALDIRIR



ABŞ-da aparılan elmi araşdırmalar zamanı məlum olub ki, sarımsaq yeyən şəxslərin yaddaşı digərləri ilə müqayisədə daha güclü olur. "Sputnik" informasiya agentliyinin Türkiyə mətbuatına istinadən verdiyi xəbərə görə, alimlər, xüsusən də yaşla bağlı yaranan yaddaş zəifliyinin aradan qaldırılması və hafizənin daha da möhkəmləndirilməsi üçün sarımsaq yeməyi tövsiyə edirlər.

Eyni zamanda, aparılan araşdırmalar nəticəsində müəyyən edilib ki, mütəmadi olaraq sarımsaq yeyən şəxslərdə bağırsaq problemləri müşahidə olunmur.

Bununla əlaqədar olaraq alimlər siçovullar üzərində də müəyyən təcrübələr aparıblar. Təcrübələr nəticəsində isə məlum olub ki, çiy sarımsaq yeyən siçovullarda bağırsaq daha sağlam olub və heç bir mikrob aşkarlanmayıb.

Bununla yanaşı, alimlər çiy sarımsağın altsheymer və parkinson kimi xəstələrin yaşadığı hafizə problemini önləyə bilmə qabiliyyətinə malik olduğunu da müəyyən ediblər. ■

# Seçenov Universitetinin Bakı filialında səhiyyənin təşkilinə dair ixtisasartırma kursları keçirilib

**Aprelin 17-də İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin (İ.M.Seçenov adına Birinci MDTU, Seçenov Universiteti) Bakı filialında "Səhiyyənin təşkili, icbari tibbi sığorta və tibbi müəssisələrin idarə edilməsi" kursu üzrə birinci məşğələ keçirilib.**



Seçenov Universitetinin Bakı filialının mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, bu kurs səhiyyənin təşkili və icbari tibbi sığorta sahəsində mütəxəssislər, həmçinin tibb müəssisələrinin rəhbərləri üçün nəzərdə tutulub. Kursda məşğələlər İ.M.Seçenov adına Birinci MDTU-nun Liderlik və Səhiyyənin İdarə Edilməsi İnstitutunun müəllimləri tərəfindən keçirilir.

Tədris kursu altı əsas bölmədən ibarətdir. Müdavimlər iki ay müddətində ictimai sağlamlıq, tibbi yardımın keyfiyyətinin idarə edilməsi, icbari tibbi sığorta, səhiyyənin təşkili və tibb müəssisələrinin menecmenti, habelə səhiyyənin iqtisadiyyatı və maliyyələşdirilməsi üzrə zəruri biliklər əldə edəcəklər.

Müdavimlər kursu bitirəndən sonra buraxılış layihələrinin təqdimatını keçirəcəklər.

**AZƏRTAC**

## Dövlət Sərhəd Xidməti mətbuat mərkəzinin məlumatı

**Dövlət Sərhəd Xidmətinin əməkdaşları tərəfindən narkotik vasitələrin dövlət sərhədindən qaçaqmalçılıq yolu ilə keçirilməsinin qarşısı alınmışdır.**

11 aprel 2019-cu il tarixində Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Lənkəran" sərhəd dəstəsinin xidməti ərazisində Astara rayonunun Sım kəndi yaxınlığındakı sərhəd zastavasının xidməti sahəsində İran İslam Respublikasından Azərbaycan Respublikasına doğru hərəkət edən 2 nəfər naməlum şəxsin hərəkəti sərhəd naryadı tərəfindən müşahidə edilmişdir. Sərhəd naryadının "dayan" əmrinə tabe olmayan sərhəd pozucularına qarşı silahdan havaya xəbərdarlıq məqsədilə atəş açılmış, lakin sərhəd pozucuları əllərindəki əşyaları əraziyə ataraq geriyə qaçmışlar.

Həmin ərazi dərhal qapadılaraq axtarış tədbirləri keçirilmiş, 1 ədəd bel çantası və 1 ədəd torbada ümumi çəkisi 15 kq 815 qr olan narkotik vasitə və 1 ədəd Kanada istehsalı olan gecəgörmə cihazı aşkar olunaraq götürülmüşdür.

Qeyd olunan fakt üzrə zəruri əməliyyat-istintaq tədbirləri davam etdirilir.

## Azercell-in sərfəli "Sadə" tarif paketi ilə danışıqlarınıza sərhəd qoymayın!

### *Azercell Sim-Sim abunəçiləri üçün yeni "Sadə" tarif paketini təqdim edir*




Ölkənin telekommunikasiya bazarında ən sərfəli təklifləri təqdim etməyi hədəfləyən Azercell, yeni "Sadə" tarif paketini abunəçilərinin istifadəsinə vermişdir. Aprel ayının 16-dan etibarən, Azercell-in Sim-Sim abunəçiləri yeni "Sadə" tarif paketi çərçivəsində həftəlik "S2" və aylıq "S6" paketlərdən yararlana biləcəklər. Beləliklə, Azercell abunəçiləri həftədə 2 AZN ödəməklə 150 şəbəkədaxili dəqiqə və 150 şəbəkədaxili SMS, ayda 6 AZN ödəməklə isə 500 şəbəkədaxili dəqiqə və 500 şəbəkədaxili SMS həcmində paketlərdən faydalanma imkanı əldə edirlər. Həftəlik paket sifariş etmək üçün S2 açar sözünü, aylıq paket üçün isə S6 açar sözünü 7575 qısa nömrəsinə göndərmək kifayətdir.

Artıq daha az ödəniş etməklə, Azercell-dən daha çox pulsuz SMS və dəqiqələr əldə edin! Azercell-in sərfəli "Sadə" tarif paketindən faydalanaraq sevdiklərinizlə danışıqlarınıza sərhəd qoymayın!

Əlavə məlumat üçün https://www.azercell.com/az/personal/tariffs/prepaid/sade/ səhifəsinə daxil olun.

TƏKRAR

Nizami rayon MKTB
Açıq Tender Elan Edir
Tender 1 (bir) lot üzrə keçirilir:
Lot-1. Asfalt örtüyünün təmiri işləri.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki, maliyyə imkanlarına malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər lot üzrə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu ala bilərlər.

Ünvan: Bakı şəhəri, Rüstəm Rüstəmov küçəsi-28.
Lot üzrə iştirak haqqı: 100 (yüz) AZN
Əlaqələndirici şəxs: Bayram Bayramov
Telefon: 323-33-28.
İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər:
Təşkilat: Nizami rayon MKTB
Hesab: AZ82CTRE00000000000002517832
VÖEN: 1600127621
Bank: Dövlət Xəzinədarlıq Agentliyi
Kod: 210005
VÖEN: 1401555071
M/H: AZ41NABZ01360100000000003944
S.W.İ.F.T: CTREAZ22
İştirak haqqı heç bir halda geri qaytarılmır.
İddiaçılar aşağıdakı sənədləri təqdim etməlidirlər:
-tenderdə iştirak etmək üçün ərizə;
-tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
-tender təklifi (zərflərin açıldığı gündən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);
-tender təklifi qiymətinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı gündən ən azı 60 bank günü müddətində qüvvədə olmalıdır);
-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması barədə müvafiq vergi orqanından arayış;
-iddiaçının son iki ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;
-iddiaçının son iki il ərzində maliyyə vəziyyəti (dövriyyəsi) haqqında bank arayışı;
-iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri, mənfəət vergisinin bəyannaməsi;
-iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları, tikinti-quraşdırma və xüsusi torpaq işləri ilə bağlı lisenziyanın vacibliyi.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 13 may 2019-cu il saat 17:00-dək, iş qrafiki, tender təklifi və bank zəmanətlərini isə möhürlənmiş ikiqat zərfdə 21 may 2019-cu il saat 17:00-a qədər təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Təklif zərfləri 22 may 2019-cu il tarixdə saat 16:00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

Tender Komissiyası.

Nəsimi Rayon Mənzil-Kommunal Təsərrüfatı Birliyi
Açıq Tender Elan Edir
Tender 5 (beş) lot üzrə keçirilir:
Lot - 1 Əsaslı təmir - 282210
Lot - 2 Mal-material - 221310
Lot - 3 Yumşaq inventar - 225200
Lot - 4 Ehtiyat hissələri - 223200
Lot - 5 Abadlıq işləri - 226200

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki, maliyyə imkanlarına malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər lot üzrə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu ala bilərlər.

Ünvan: Bakı şəhəri, Səməd Vurğun küçəsi 112
Hər Lot üzrə iştirak haqqı: 50 AZN
Əlaqələndirici şəxs: Cavadov Elşad
Telefon: 050 378-51-51
İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər:
A1. Emitent (ödəyən) bank/ Remitting Bank
Adı/Name DXA
Kodu/Code: 210005
VÖEN/INT: 1401555071
Müxbir hesab/Corr.Acc.:
AZ41NABZ01360100000000003944
S.W.İ.F.T. /S.W.İ.F.T. CTREAZ22
A2. Ödəyən müştəri/Ordering Customer
Adı/Name Nəsimi Rayon Mənzil Kommunal Təsərrüfatı Birliyi
Hesab №/Account No:
AZ49CTRE00000000000002518232
VÖEN/INT 1400332551
İştirak haqqı heç bir halda geri qaytarılmır.
İddiaçılar aşağıdakı sənədləri təqdim etməlidirlər:
-tenderdə iştirak etmək üçün ərizə;
-tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
-tender təklifi (zərflərin açıldığı gündən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);
-tender təklifi qiymətinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı gündən ən azı 60 bank günü müddətində qüvvədə olmalıdır);
-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması barədə müvafiq vergi orqanından arayış;
-iddiaçının son iki ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;
-iddiaçının son iki il ərzində maliyyə vəziyyəti (dövriyyəsi) haqqında bank arayışı;
-iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri, mənfəət vergisinin bəyannaməsi;
-iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları, tikinti-quraşdırma və xüsusi torpaq işləri ilə bağlı lisenziyanın vacibliyi.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 22 may 2019-cu il saat 17:00-dək, iş qrafiki, tender təklifi və bank zəmanətlərini isə möhürlənmiş ikiqat zərfdə 31 may 2019-cu il saat 17:00-a qədər təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Təklif zərfləri 3 iyun 2019-cu il tarixdə saat 16:00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

Tender Komissiyası.

### BİLDİRİŞ

"Bakı Metropoliteni" QSC tərəfindən keçirilmiş Pəncərə üçün jalüzlərin "Kotirovka sorğusu" üsulu ilə satınalınmasına dair müsabiqədə fiziki şəxs Həsənov Hüseyn Tahir oğlu qalib elan olunmuşdur. Qalib gəlmiş fiziki şəxs ilə 16.04.2019-cu il tarixdə ƏDV siz 32 700,00 (otuz iki min yeddi yüz manat 00 qəpik) məbləğində müvafiq satınalma müqaviləsi imzalanmışdır.

**"Bakı Metropoliteni" QSC-nin Tender Komissiyası.**

### BİLDİRİŞ

"Respublika" qəzetinin 17 aprel 2019-cu il tarixli sayında Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Fitosanitar Xidmətinin dərc olunmuş tender elanında "tender təklifi dəyərinin 2%-i həcmində bank təminatı" sözləri "tender təklifi dəyərinin 1%-i həcmində bank təminatı" kimi oxunmalıdır.

**Tender Komissiyası.**

### BİLDİRİŞ

"Bakı Metropoliteni" QSC tərəfindən 29.01.2019-cu il tarixdə keçirilmiş Blok Post və Bakmil stansiyası üçün interyer avadanlığı və aksesuarların " "Açıq Tender" üsulu ilə satın alınmasına dair müsabiqədə 16.04.2019-cu il tarixdə "GBS" MMC - ƏDV daxil 75225,00 manat (yetmiş beş min iki yüz iyirmi beş manat 00 qəpik), "Yaşar-83" MMC - ƏDV-daxil 10288.42 manat (on min iki yüz səksən səkkiz manat 42 qəpik), "Embawood" MMC- ƏDV daxil 79 048.20 manat (yetmiş doqquz min qırx səkkiz manat 20 qəpik) və "All Supply" MMC- ƏDV daxil 21 676.60 manat (iyirmi bir min altı yüz yetmiş altı manat 60 qəpik) məbləğində qalib elan olunmuşdurlar və müvafiq satınalma müqavilələri imzalanmışdır.

**"Bakı Metropoliteni" QSC-nin Tender Komissiyası.**

### BİLDİRİŞ

"Bakı Metropoliteni" QSC tərəfindən 04.03.2019-cu il tarixdə keçirilmiş Qum, çınqıl və s. materialların (daşınması ilə birlikdə) "Açıq Tender" üsulu ilə satınalınmasına dair müsabiqədə "AZ-TEK.İN" MMC qalib elan olunmuşdur və qalib gəlmiş təşkilat ilə malların və onların daşınmasının ümumi dəyəri 2 146 260,00 manat (iki milyon yüz qırx altı min iki yüz altmış manat 00 qəpik) məbləğində 16.04.2019-cu il tarixində müvafiq satınalma müqaviləsi imzalanmışdır.

**"Bakı Metropoliteni" QSC-nin Tender Komissiyası.**

TƏKRAR

### Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi yanında Baş Dövlət Texniki Nəzarət Xidməti

## AÇIQ TENDER ELAN EDİR

**Tender 1 (bir) lot üzrə keçirilir:**

**Lot 1.** Kənd təsərrüfatı texnikalarının Dövlət qeydiyyat nömrə nişanının satınalınması.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki, maliyyə imkanlarına malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər lot üzrə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu ala bilərlər.

**Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Nəcəf Nərimanov küçəsi 7A**
**Lot üzrə iştirak haqqı: 590 (beş yüz doxsan) manat**
**Əlaqələndirici şəxs: Sona Məmmədova**
**Telefon: 012-562-74-23**
İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər:
*Adı: Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Baş Dövlət Texniki Nəzarət Xidməti*
*VÖEN: 1700221271*
*Hesab: AZ69CTRE00000000000008527701*
*Adı: Dövlət Xəzinədarlıq Agentliyi*
*Kodu: 210005*
*VÖEN: 1401555071*
*Müxbir hesab: AZ41NABZ01360100000000003944*
*S.W.İ.F.T Bik.: CTREAZ22*
*Büdcə təsnifat kodu: 142340*
*Büdcə səviyyəsinin kodu: 7 (Tender iştirak haqqı)*
**İştirak haqqı heç bir halda qaytarılmır.**
İddiaçılar aşağıdakı sənədləri təqdim etməlidirlər:
*1. Tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*3. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*4. Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərfin açıldığı tarixdən sonra ən azı 60 bank günü ərzində qüvvədə olmalıdır);*
*5. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanlarından arayış;*
*6. İddiaçının son 1 (bir) ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*7. İddiaçının son 1 (bir) ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*8. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçirildiyi ölkə və rekvizitləri;*
*9. İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları, işləri yerinə yetirmək üçün analoji işlərdə təcrübəsi;*
*10. Digər sənədlər.*

Sənədlər Azərbaycan dilində iki nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət Satınalmaları haqqında" Qanuna uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 06.05.2019-cu il saat 17:00-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 15.05.2019-cu il saat 17:00-a qədər təqdim edilməlidir.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 16.05.2019-cu il saat 15:00 tarixində açılacaqdır.

İddiaçılar səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**Tender Komissiyası.**

### BİLDİRİŞ

Bakı Nəqliyyat Agentliyi 19 fevral 2019-cu il tarixində "lot-1 Texniki zəmanət müddəti bitmiş pandus və məhəccərlərin cari təmiri işləri və baxım xidmətləri"nin satın alınması məqsədilə "Respublika" qəzetinin 19 fevral 2019-cu il tarixli 40 (6367) saylı tirajında elan edilmiş açıq tender prosedurunun nəticələri "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 11.1-ci maddəsinə əsasən ləğv edilmişdir.

**Tender Komissiyası.**

11 nömrəli inteqrasiya təzimli internat məktəb içməli suyun satınalınmasını kotirovka sorğusu üsulu ilə həyata keçirir.

Sənədlər 26 aprel 2019-cu il saat 17:00-a kimi qəbul olunur. Zərflər 29 aprel 2019-cu il saat 12:00-da açılacaqdır.

**Tender Komissiyası.**

Filizçay polimetal yatağı üzrə çöl işlərinin layihələndirilməsi və nəzarət xidmətinin təkliflər sorğusu üsulu ilə satın alınmasını həyata keçirir.

Maraqlanan şəxslər "AzerGold" QSC-nin Tender Komissiyası (Bakı şəhəri, Səbail rayonu, Mikayıl Müşfiq 2H, Əlaqələndirici şəxs: Aygül Tağıyeva, Tel.: 012-505-02-02 (dax.1108), I-V günlər, 09.00-18.00) ilə əlaqə saxlaya bilərlər.

Təkliflər sorğusunda iştirak etmək üçün sənədlər 29 aprel 2019-cu il saat 15:00-a qədər qəbul olunur.

**"AzerGold" QSC-nin Tender Komissiyası**

### BİLDİRİŞ

"Bakı Metropoliteni" QSC tərəfindən keçirilmiş Kimyasal ankerlər və müxtəlif ölçülü beton burğuların "Kotirovka sorğusu" üsulu ilə satın alınmasına dair müsabiqədə hüquqi şəxs "Zetaş Yapı Malzemeleri Sanayi ve Ticaret Limited" Şirkətinin Azərbaycan Respublikasındakı Nümayəndəliyi qalib elan olunmuşdur. Qalib gəlmiş təşkilat ilə 16.04.2019-cu il tarixdə ƏDV daxil 46 135,86 (qırx altı min yüz otuz altı manat 86 qəpik) məbləğində müvafiq satınalma müqaviləsi imzalanmışdır.

**"Bakı Metropoliteni" QSC-nin Tender Komissiyası.**

"Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti 20,0 min ton ammonium nitrat gübrəsinin satınalınması üzrə keçirdiyi təkliflər sorğusunda qalib gəlmiş "AZFAR-TRANS" MMC ilə müqavilə bağlamışdır.

**Tender Komissiyası.**

### BİLDİRİŞ

"Respublika" qəzetinin 17 aprel 2019-cu il tarixli sayında Xəzər Rayon İcra Hakimiyyəti dərc olunmuş tender elanının məzmunu tender elanı kimi deyil kotirovka sorğusu oxunmalıdır.

### BİLDİRİŞ

Cəlilabad Rayon İcra Hakimiyyəti Cəlilabad şəhər İƏD üzrə İcra Nümayəndəliyi "Respublika" qəzetinin 14 fevral 2019-cu il və 24 fevral 2019-cu il tarixli saylarında lot 1 - Şəhər ərazisində yolların əsaslı təmiri işləri, lot 2 - Şəhərdə abadlıq işləri, lot 3 - Şəhərdə mənzil fondunun əsaslı təmiri işlərinin satınalınması barədə dərc olunmuş tender elanında zərflər 30 aprel 2019-cu il saat 10:00-da açılacaq. Tender təklifi və bank zəmanəti 29 aprel 2019-cu il saat 17:00-a kimi qəbul olunur. Digər sənədlər isə 19 aprel 2019-cu il saat 17:00-a kimi qəbul olunur.

**Tender Komissiyası.**

### XƏZƏR RAYONU MƏNZİL-KOMMUNAL TƏSƏRRÜFATI BİRLİYİ

*İctimai işlərə cəlb edilmiş işçilərə əlavə mal-material, geyim və inventarların satınalınması üçün*

**TƏKLİFLƏR SORĞUSU ELAN EDİR**

Təkliflər 19 aprel 2019-cu il saat 17:00-dək qəbul edilir.

Təklif zərfləri 22 aprel 2019-cu il saat 12:00-da açılacaqdır.

**Əlaqələndirici şəxs:** *Nəsib Qocayev*
**Tel.:** *012-454-13-12*
**Ünvan:** *Bakı şəhəri, Şüvəlan qəs., A.İldırım-32.*

DƏDRX-nin Abşeron Ərazi İdarəsi tərəfindən 12.02.2018-ci il tarixdə Xırdalan şəhəri, H.Əliyev prospekti 30 məhəllə, bina 19, mənzil 28 ünvana Həbibova Nurdan Əfqan qızının adına (rey-308013107626-05301-093005) hüquqların qabaqcadan qeydiyyatı - Dövlət reyestrindən çıxarış itdiyi üçün etibarsız sayılır.

DTX-K-nin Şabran rayon şöbəsi tərəfindən Ağalıq kənd sakini Əkbərova Xeyrənsə Xəlfə qızının adına verilmiş hüququna dair Dövlət Akti itdiyi üçün etibarsız sayılır.

"Azəri Tikinti Şirkəti" MMC (VÖEN 13016220621) "Pilot 1" MMC (VÖEN 1403417121) fəaliyyətinə xitam verilərək ona qoşulması nəticəsində yenidən təşkil edildiyini elan edir.

DTXK-nin Şabran rayon şöbəsi tərəfindən Rəhimli kənd sakini Cəbrayılov Natiq Qulam oğlunun adına verilmiş JN-144 (kod-30408018) saylı torpağa mülkiyyət hüququna dair Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Memarlıq və İnşaat Universiteti tərəfindən Həşimov Azər Afər oğlunun adına verilmiş 18/200215 saylı tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Memarlıq və İnşaat Universiteti tərəfindən Namazov Nemət Murad oğlunun adına verilmiş 18/200134 saylı tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Memarlıq və İnşaat Universiteti tərəfindən Axundov Azər Ataş oğlunun adına verilmiş 18/200176 saylı tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Lənkəran rayon aqrar islahat komissiyasının 30 may 1998-ci il tarixli 10 nömrəli qərarı ilə Veravul kənd sakini Məhərrəmov Qılman Bayram oğluna verilmiş Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı (JN 587; KOD 80200048) itdiyi üçün etibarsız sayılır.

Masovdifar Reza Mohammed adına Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının 22 may 2012-ci il tarixli (protokol №18-10) qərarı ilə hüquq üzrə fəlsəfə doktoru elmi dərəcəsi verilməsi haqqında sənəd itdiyi üçün etibarsız sayılır.

### ALLAH RƏHMƏT ELƏSİN

**AMEA Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun direktoru akademik İradə Hüseynova və institutun kollektivi AMEA Dendrologiya İnstitutunun elmi işlər üzrə direktor müavini, b.ü.e.d. Zümrüd Məmmədovaya, bacısı ƏDİLƏ xanım SÜLEYMANOVANIN vaxtsız vəfatından kədərləndiklərini bildirir və mərhumun yaxınlarına dərin hüznlə başsağlığı verirlər.**

Baş redaktor
Teymur ƏHMƏDOV

● Redaksiyanın telefonları:
İqtisadiyyat və islahatlar redaksiyası: 539-95-51;
Siyasət, ictimai problemlər və analitik təhlil redaksiyası: 538-55-20;
Beynəlxalq əlaqələr, dövlət quruculuğu və hüquq redaksiyası: 539-26-18;
Humanitar siyasət redaksiyası: 538-25-70;
Xəbərlər redaksiyası: 538-61-02;
İctimai rəy və sosial problemlər redaksiyası: 539-95-51; 538-43-41 tel/faks;
Qəbul otağı: 538-25-70;
Katiblik: 538-25-70;
Reklam və elan xidməti: 441-20-23.




● Redaksiyanın ünvanı:
AZ1073, Bakı
Mətbuat prospekti, 529-cu məhəllə, VII mərtəbə.
E-mail: resp@azdata.net
www.respublica-news.az
"Respublika" qəzetinin kompyuter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur.
Qeydiyyat № 7.

İndeks 0240
Tiraj 4292
Sifariş 023
Qəzetin satış qiyməti 40 qəpik

Məsul növbətçi
Hümmət MUSAYEV
● Çapa imzalanmışdır
17.04.2019